

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir




5

SƏS
№ 093 (7018)
25 may 2024-cü il.
Qiymәti 60 qәpik

# Möhtəşəm 100 gün!



2

# 4 kəndin məsələsi




4

## Erkən nikah: övladımıza kölə kimi baxmayaq...



8

## Nə piyada qayda bilir, nə sürücü



15

## Ağ xətt üzərində qara düşüncələr...



12

## Qazax rayonunun azad olunan dörd kəndində Azərbaycan Bayrağı ucaldılıb



6

## Paris yaşıl dünyaya qarşı



13

*“Fevralın 14-də dövlətə və xalqa sədaqət andı içən İlham Əliyevin növbəti müddət üçün prezidentlik fəaliyyətinə başlamasından 100 gün ötür. Yeni seçilmiş prezidentin fəaliyyətinin ilk 100 gününün nəticələri isə onun dövlət rəhbəri kimi missiyasının qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə istər dövlət, istərsə də hökumət başçısının gələcək fəaliyyətinin proqnozlaşdırılması ilə bağlı beynəlxalq praktikada öz təsdiqini tapmış mühüm politoloji yanaşma hesab olunur.” Bu fikirlər Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərovun “Möhtəşəm 100 gün” sərlövhəli məqaləsində yer alıb. Məqaləni ixtisarla təqdim edirik.*




# Möhtəşəm 100 gün!

### Etimadın təcəssümü

Növbədənkənar prezident seçkiləri azad, ədalətli, şəffaf, demokratik meyarlar çərçivəsində keçirilməklə ölkəmizin tarixinə növbəti mühüm siyasi-tarixi hadisə kimi həkk olundu. Ən əsası, bu seçkidə möhtərəm İlham Əliyevin növbəti inamlı qələbəsi, ölkə üzrə səsvermədə iştirak etmiş seçicilərin 92,12 faizinin səsini qazanması Azərbaycan xalqının hazırkı siyasi kursa, böyük Heydər Əliyev yoluna etimadının və sədaqətinin növbəti təcəssümünə çevrildi.

Bu seçkilərdə Azərbaycan xalqının seçimini müəyyən edən, bu seçimin təməlində dayanan olduqca mühüm fundamental əsaslar var idi. Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin nəticəsi kimi 2003-2023-cü illərdə yaranmış bu əsaslar zəncirvari şəkildə bir-birini tamamlayaraq, Azərbaycanın öz tarixinin ən qüdrətli dövlət səviyyəsinə yüksəlməsini şərtləndirib. Bütün bu reallıqları təmin edən Prezident İlham Əliyev isə öz əməlləri ilə xalqımızın qüruruna çevrilən siyasi liderdir, böyük şəxsiyyətdir.

Azərbaycan xalqı növbədənkənar seçkilərdə bu reallıqlara istinad etdi, əldə edilən bu kimi nailiyyətlərin davamına səs verdi. Bu seçimi ilə xalqımız bir daha göstərdi ki, böyük Heydər Əliyev yoluna və İlham Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmir. Möhtərəm İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında ən böyük tarixi xidməti isə, əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, Azərbaycan torpaqlarında XIX əsrin əvvəllərindən kök atmağa başlamış mənfur erməni separatizminə son qoyulmasıdır. Vətən müharibəsindəki Zəfərimizin, bütün ərazilərimiz üzərində milli suverenliyimizin müəllifi olan Prezident İlham Əliyev bununla Ulu Öndər Heydər Əliyevin arzularını çin etdi, ata vəsiyyətini layiqincə yerinə yetirdi.

### 20 ilin uğur hesabatı və yeni dövrün yol xəritəsi

100 gün əvvəl - fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindən sonra isə dövlətimiz və xalqımız Prezident İlham Əliyevin qətiyyətli və müdrik rəhbərliyi ilə tarixdən süzülüb gələn dövlətçilik ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, müstəqilliyimizin bunaqədərki - böyük Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əldə edilmiş möhtəşəm nailiyyətlərə, Vətən müharibəsindəki Zəfərə və ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunduğu tarixi gerçəkliyə söykənərək yeni inkişaf və yüksəliş mərhələsinə daxil oldu.

Prezident İlham Əliyevin Milli Məclisdə etdiyi çıxışını televiziya ekranlarından böyük qürur və fəxarət hissilə izlədik. Prezidentin proqram xarakterli çıxışının məzmunu əhatəli idi və təsadüfi deyil ki, geniş siyasi-ictimai marağa səbəb oldu, xalqımızın tarixi baxışları, ölkəmizin bugünkü nailiyyətləri və gələcək milli hədəfləri ilə vəhdət təşkil etdi.

Ən əsası, bu çıxış Müzəffər Ali Baş Komandanın ötən 20 illik fəaliyyətinin qədirbilən xalqımızın zəfər tarixində həmişə yaşayacaq uğur hesabatı idi. Hansı ki, bu hesabat 20 illik yüksəliş və inkişaf mərhələsinin möhtəşəm nailiyyətlərini və tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı. Prezident İlham Əliyevin ”Biz bu gün Ağdamdayıq, Füzulideyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndideyik!” sözləri ötən 20 illik dövrün bütün uğurlarının, xalqımızın uzun illərdən bəri arzu və istəklərinin ümumiləşdirilmiş möhtəşəm ifadəsinə çevrildi.

Bu çıxış həm də Azərbaycanın daxil olduğu yeni inkişaf və yüksəliş mərhələsinin düşünülmüş və əsaslandırılmış yol xəritəsi idi. Dövlət başçısının hər bir fikri, hər bir cümləsi respublikamızın etibarlı gələcəyinə, xalqımızın firavanlığına və rifahına aydın və konkret notlar üzərində baxış idi.

Dövlətimizin başçısının çıxışını dinlədikcə görürdük ki, möhtərəm İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi dövlətimizi və xalqımızı gələcəyə də qalibiyyət ruhunda aparır. Yəni qədəm qoyduğumuz yeni dövrdə əldə edəcəyimiz hər bir uğurun təməlində, kökündə Vətən müharibəsindəki zəfərimiz, erməni separatizminə son qoymağımız dayanacaq. Prezident İlham Əliyevin qarşıya qoyduğu digər məsələlər də milli ruhla və dövlətçilik dəyərləri ilə əlaqələndirildi. Bununla da, tarixi dövlətçilik ənənələrimizdən, milli dəyərlərimizdən, döyüş və Zəfər ruhumuzdan, qurub-yaratmaq potensialımızdan ibarət yeni bir mərhələyə qədəm qoyuldu. Böyük qürur hissilə qeyd etməliyik ki, Azərbaycan bu yeni dövrə bir zamanlar həlli hər birimizə müşkül görünən tarixi problemlərimizi milli maraqlarımız çərçivəsində yoluna qoymuş, ötən 20 ilin zəngin inkişaf və yüksəliş təcrübəsi ilə güclənmiş, milli haqqını, qürurunu, ləyaqətini təmin etmiş şəkildə başıuca daxil olur.

### Sülhməramlılar əraziləri vaxtından tez tərk etdilər

Prezident İlham Əliyevin yeni müddət üçün fəaliyyətinin ilk 100 gününün ən mühüm hadisələrindən biri Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərini tərk etməsidir. 10 noyabr üçtərəfli Bəyanatına əsasən, sülhməramlı kontingentin qalma müddəti 5 il idi. Amma ötən il Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərinin nəticəsində Qarabağdakı erməni separatçılarının mövcudluğuna son qoyuldu, bütün ərazilərimiz üzərində milli suverenliyimiz təmin edildi. Buna görə rus sülhməramlılarının Azərbaycan ərazilərində qalmalarına da zərurət olmadı və onlar vaxtından da tez ölkəmizi tərk etdilər. Bu, həm də qalib ölkənin vətəndaşlarının haqlı gözləntisi idi.

Rusiya sülhməramlılarının Azərbaycan ərazilərini tərk etməsi yeni tariximizin mühüm hadisələrindən biridir. Bu, Azərbaycanın milli mənafelərinin qorunması müstəvisində strateji uğurumuz olmaqla, həm də onu göstərir ki, Qarabağ problemi tam həll olunub. Sülhməramlıların Azərbaycanı vaxtından da tez tərk etməsi bir daha Prezident İlham Əliyevin qətiyyətli və strateji baxımdan dərindən düşünülmüş, olduqca uzaqgörən siyasət yürütdüyünü bir daha nümayiş etdirdi.

Bu proses həm də Ulu Öndər Heydər Əliyevin müdrikliyi nəticəsində keçmiş sovet qoşunlarının 1992-ci ildə Naxçıvanı tərk etməsini yadımıza saldı. Və bir daha əmin oluruq ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yol, Prezident İlham Əliyevin həyata keçirdiyi alternativsiz siyasət milli maraqlarımızın ən etibarlı təminatçısıdır.

Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməsi daxildə və xaricdə olan qaragüruhçuların, sapı özümüzdən olan baltaların səsləndirdikləri cəfəng ”proqnozlar”ın və iddiaların nə qədər çürük, əsassız olduğunu göstərdi, bunu səsləndirənlərin siyasi savad və dünyagörüşünün kasadlığını, qərəzliliyini bir daha sübut etdi. Çünki onlar belə bir iddia irəli sürürdülər ki, Rusiya qoşunları daxil olduğu ərazilərdən çıxmır və sülhməramlı kontingent Azərbaycan torpaqlarını heç vaxt tərk etməyəcək. Lakin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qaragüruhçuların, Qərbdə mənzillənmiş ”beşinci kolon”un bütün əsassız iddialarını və arqumentlərini alt-üst etdi. Bu hadisə Qərb siyasi dairələrinin də regionla bağlı məkrli niyyətlərini gözlərində qoydu.

### Dörd qeyri-anklav kənd Azərbaycana qaytarıldı

Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməyə başlamasının ardınca Azərbaycan ictimaiyyəti növbəti xoş müjdəyə sevindi. Belə ki, Azərbaycanla Ermənistan arasında aprelin 19-da keçirilən dövlət sərhədinin delimitasiyası üzrə görüşdə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş Sovetlər İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq, Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasından bilavasitə keçməsini razılaşdırdılar. Bu o demək idi ki, hazırda Ermənistanın işğalı altında olan bu 4 qeyri-anklav kənd Azərbaycana qaytarılır. Və hamı bilir ki, bu proseslər məhz qəhrəman xalqımızın dünyaya bəxş etdiyi böyük sərkərdə, dünya lideri Prezident İlham Əliyevin ölkəmizə ləyaqətlə rəhbərlik etməsi, xidmət göstərməsi sayəsində baş verir.

Prezident İlham Əliyev cari il mayın 10-da yerli televiziya kanallarına müsahibəsində bu barədə suala cavabında demişdi: ”Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır”. Aprel ayında həmin qeyri-anklav 4 kəndin işğaldan azad edilərək Azərbaycana qaytarılması barədə razılığın əldə olunması Prezident İlham Əliyevin həmin müsahibədə ifadə etdiyi qətiyyətli mövqeyinin öz təsdiqini tapmasıdır. Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsi Vətən müharibəsindəki zəfərin, ərazilərimizdə erməni separatizminə son qoyulmasının məntiqi davamı kimi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində qazanılan mühüm tarixi uğurdur. Bu uğurun müəllifi də məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu qürurverici hadisə bir daha göstərdi ki, dövlətimizin başçısı Azərbaycanın, xalqımızın milli maraqları ilə bağlı istənilən məsələdə qətiyyətli, dönməz və prinsipialdır.

Ardı Səh. 3

# Möhtəşəm 100 gün!

Əvvəli-Səh-2

## Qayıdışın ünvanları sırasına Şuşa şəhəri və Sus kəndi də əlavə olundu

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövlətinin əsas milli hədəflərindən biri Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşüdür. İşğaldan azad edilmiş ərazilərin bərpası isə hələ Vətən müharibəsinin davam etdiyi günlərdən sonra başlayıb, ötən 3 il yarım ərzində sürətlə davam etdirilib. Bu qısa dövrdə azad edilmiş ərazilərin yenidən qurulmasının miqyası, həqiqətən, heyrətamiz və qürurvericidir.

Ötən 100 gün göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur Prezident İlham Əliyevin böyük zəhməti, əzmi ilə sürətlə yenidən qurulur. Əgər 100 gün əvvələ qədər keçmiş məcburi köçkünlər Füzuli və Laçın şəhərlərinə, Zəngilanın Ağalı, Laçının Zabux, Tərtərin Talış kəndlərinə qayıtmışdılarsa, artıq qayıdışın ünvanları sırasına qeyrət qalamız olan Şuşa şəhəri və doğma Laçınımızın Sus kəndi də əlavə olunub. Əgər 100 gün əvvələ qədər Qarabağ və Şərqi Zəngəzura 5,4 min nəfərə yaxın keçmiş məcburi köçkün qayıtmışdısa, bu gün doğma yurduna qayıdanların sayı 7 min nəfəri ötüb.

Mayın 18-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin, Zəngilanın Mincivan qəsəbəsinin təməllərinin qoyulması, "Ağalı" hotelinin, "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyalarının, Zəngilan məscidinin istifadəyə verilməsi bir daha azad edilmiş ərazilərin bərpasının yüksək sürətlə davam etdirildiyini göstərdi.

## On səkkiz ölkənin dövlət və hökumət başçıları ilə görüş

100 günün təhlili Prezident İlham Əliyevin yürütdüyü mükəmməl xarici siyasət kursunun miqyasını da göstərir. Bu müddətdə Prezident İlham Əliyev 3 dövlətə səfər edib, 7 ölkənin prezidenti, 5 ölkənin hökumət başçıçı Azərbaycana gəlib. Ümumilikdə bu dövrdə Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə keçirilən görüşlər də daxil olmaqla, 18 ölkənin dövlət və hökumət başçıları, o cümlədən ABŞ Dövlət katibi, NATO-nun Baş katibi, ATƏT-in Baş katibi ilə görüşüb. Bu səfərlər və görüşlər ilk növbədə Azərbaycanın xarici siyasətinin məzmunundan, bu siyasətin çoxvektorlu və müstəqil olmasından xəbər verir. Ən əsası, Qərb siyasi dairələrinin respublikamıza qarşı qərəzli və məkrli siyasi fəaliyyətləri fonunda Prezident İlham Əliyev öz uğurlu xarici siyasət kursu ilə 100 gündə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edib. Eyni zamanda bu görüşlərin hər biri Prezident İlham Əliyevə olan qlobal ehtiramdan xəbər verir. Fevral ayında andiçmə mərasimindən sonra 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərinə səfər edən Prezident İlham Əliyevin keçirdiyi hər bir görüş göstərdi ki, dövlətimizin başçısı beynəlxalq miqyasda dərin ehtiramla qarşılanan siyasi liderdir. Münxen Təhlükəsizlik Konfransındakı görüşlərdən gələnən başqa bir qənaət isə bu oldu ki, Azərbaycan Prezidentinin hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Eləcə də Azərbaycana səfər edən dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə bağlı fikirlərini xüsusi qeyd etməliyik. Məsələn, Bolqarıstan Prezidenti Rumen Radevin Bakıda mətbuata ünvanladığı bəyanatda "Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm" deməsi, Slovakiyanın Baş naziri Robert Fitsonun "Sizə açıq şəkildə deyə bilərəm ki, təkbətək görüşümüzdə müzakirələrimiz ölkəniz və Sizin haqqınızda düşündüyümün təsdiqi oldu. Siz suveren xarici siyasətin tərəfdarısınız. Siz beynəlxalq hüququ müdafiə edən şəxsiyyətsiniz. Siz praqmatik şəxsiyyətsiniz" sözləri, Belarus Prezidenti Aleksandr Lukaşenkonun "Tanrıya şükürlər olsun ki, bu mürəkkəb regionda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur" sözləri Prezident İlham Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, etibarlı tərəfdaş olmasına verilən ali qiymətlərin və onun qlobal miqyasdakı nüfuzunun növbəti təsdiqi oldu.

## Dövləti sevməyin və Vətənə xidmətin nümunəsi

Prezident İlham Əliyevin fəaliyyətinin son 100 günü Azərbaycanın tək müasir müstəqillik dövrünü deyil, bütün dövlətçilik tarixini şərəfləndirən olduqca möhtəşəm hadisələr və uğurlarla əlamətdardır. Hansı ki, bu hadisələrin hər biri dövlətimizin və xalqımızın milli maraq və mənafelərini qoruyub və qarşıya qoyulan vəzifələrin yerinə yetirildiyini təsdiq edib. 100 günü ərazi bütövlüyümüzün bərpasından sonra respublikamızın qədəm qoyduğu yeni dövrün ilk uğurlu mərhələsi də adlandıra bilərik.

Əlbəttə ki, bu mərhələdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Prezident İlham Əliyevin ən böyük siyasi silahdaşı Mehriban xanım Əliyevanın fəaliyyətini, respublikamızda əldə olunan nailiyyətlərə verdiyi dəyərli töhfələri xüsusi qeyd etməliyik. Hörmətli Mehriban xanım Əliyevanın istər Birinci vitse-prezident, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi genişmiqyaslı siyasi-ictimai fəaliyyətinin hər bir məqamı müstəqil Azərbaycan dövlətini sevməyin və Vətənə, xalqa xidmətin ən mükəmməl nümunələridir.

*Aleksandr Lukaşenkonun "Tanrıya şükürlər olsun ki, bu mürəkkəb regionda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur" sözləri Prezident İlham Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, etibarlı tərəfdaş olmasına verilən ali qiymətlərin və onun qlobal miqyasdakı nüfuzunun növbəti təsdiqi oldu.*

İki həftə əvvəl yaranmasının 20-ci ili tamam olan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini Azərbaycan cəmiyyəti haqlı olaraq xanım Mehriban Əliyevanın vətənpərvərliyinin, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə olan dərin bağlılığının təcəssümü kimi qəbul edir. Ulu Öndər Heydər Əliyevin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ötən 20 ildə fondun sosial, mədəniyyət və humanitar sahələrdə həyata keçirdiyi saysız-hesabsız layihələr Prezident İlham Əliyevin müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsində əvəzsiz rol oynayaraq, cəmiyyətimizdə yüksək əhvali-ruhiyyəni, vətəndaş məmnuniyyətini təmin edir. Mehriban xanım Əliyeva hər zaman köməyə, qayğıya ehtiyacı olanların dayağı, kimsəsizlərin, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərin ümid yeri olub. Zaman-zaman səhhətində problem yaranmış elm, mədəniyyət, incəsənət xadimlərinin ölkəmizdə və xaricdə müalicəsinin həyata keçirilməsi, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların yenidən sağlam həyata qayıdışı üçün Bakıda Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin və onlarla müxtəlif xəstəxanaların inşası, 500-dən artıq orta məktəbin, uşaq evlərinin bərpası və ya yenidən qurulması xanım Mehriban Əliyevanın elmimizin, mədəniyyətimizin, milli genefondumuzun qorunmasına və inkişafına yönəlik fəaliyyətinin və vətənpərvərliyinin ayrıca nümunəsi və nümayişidir.

Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği, mədəni-tarixi abidələrimizin bərpası, milli dəyərlərimizin UNESCO-nun irs siyahısına salınması yönündə fəaliyyəti isə Mehriban Əliyevanın milli dəyərlərimizə dərin sevgisini göstərir. Mehriban Əliyeva yalnız milli mədəniyyətimizin fəal təbliğatçısı deyil, həm də onun əzmkar qoruyucusudur. Bütün bunlarla Mehriban Əliyeva maddi və mənəvi mədəni irsimizin əsl sahiblərinin məhz xalqımız olduğunu dünyaya bəyan edir.

Son onilliklərdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi məzmunlu, tutumlu tədbirlər isə erməni yalanlarının ifşa edilməsində, Xocalı soyqırımının dünyada tanıdılmasında böyük rol oynamaqla, xarici siyasətimizin daha böyük uğur qazanmasına xidmət edib. Bu işdə Birinci xanım Mehriban Əliyevanın təşəbbüsləri hər bir azərbaycanlı üçün vətəni sevməyin əsl örnəyidir.

Son 3 il yarımda isə xalqımız Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin timsalında xanım Mehriban Əliyevanın böyük ürək sahibi olmasına, intəhasız vətən sevgisinə şahidlik edir. Heydər Əliyev Fondunun təşəbbüsləri ilə azad olunmuş ərazilərimizdə, xüsusən Şuşada tarixi və dini abidələrimizin bərpası ilə bağlı həyata keçirilən layihələr Mehriban Əliyevanın həm də fəal, əsl vətəndaşlıq mövqeyinin ifadəsidir. Bu layihələr nəticə etibarilə azad olunmuş ərazilərimizin daha sürətli və keyfiyyətli bərpasına xidmət edir.

Ümumilikdə isə, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident və Heydər Əliyev Fondunun prezidenti kimi məzmunlu və çoxşaxəli fəaliyyətinin hər bir istiqaməti Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata vəsiqə almasına, möhtərəm Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin daha böyük uğurlar qazanmasına xidmət edir. Prezident İlham Əliyevin yeni müddətə prezidentliyinin ötən 100 gününün reallıqları da məhz birinci xanım Mehriban Əliyevanın Azərbaycan dövlət siyasətinə hərtərəfli layiqli töhfələr verdiyini tam miqyası ilə təsdiq edir.

## Naxçıvanın inkişafında yeni mərhələ başlayıb

Prezident İlham Əliyevin yeni müddətə dövlət başçısı kimi fəaliyyətinin ilk 100 gününün əsas göstəricilərindən biri də respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, makroiqtisadi göstəricilərin yüksəlməsidir. 2024-cü ilin ötən dövründə ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunması respublikanın inkişafı ilə bağlı tam aydın təsəvvür yaradır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sferada yeni nailiyyətlər əldə olunub, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi təmin edilib.

2024-cü ilin ötən dövründə Naxçıvanda sosial-iqtisadi sahədə əldə olunan bəzi müsbət nəticələrə diqqət yetirsək, təkcə bu ilin ilk aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalının həcminin 200 milyon 800 min 700 manat və ya ötən ilin əvvəli ilə müqayisədə 2,7 faiz çox olması islahatların uğurlu nəticələrindən biri kimi qiymətləndirilməlidir. Bu dövrdə əhalinin hər nəfərinə düşən ÜDM istehsalı 2 faiz artaraq 428,3 manata çatıb. Bundan başqa, ilin əvvəlindən muxtar respublikada 91 milyon manatdan artıq sənaye məhsulu istehsal edilib ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 27 faiz üstələyir. Bu dövrdə nəqliyyat sektorunda yük və sərnişin daşınması, pərakəndə ticarət dövriyyəsi, əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb ki, bütün bunlar müxtar respublikanın həm də bütün digər sahələrində yeni inkişaf mərhələsinin uğurlu olduğunu göstərir.

Təbii ki, dəyişikliklər yalnız iqtisadi sahədə deyil, digər sahələrdə də özünü göstərir. Görünən həm də odur ki, Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Ən əsası, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə qısa zamanda əldə edilmiş nailiyyətlər, hər bir yüksəliş nümunəsi təsdiq edir ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr Naxçıvanda vaxtında və layiqincə icra olunur.

## COP29 Azərbaycanın dünyaya yeni təqdimatı olacaq

Qarşıdakı dövrdə Azərbaycanı milli prioritetlərin yerinə yetirilməsi ilə bağlı mühüm vəzifələr və həm də yeni nailiyyətlər gözləyir. Eyni zamanda onu da qeyd etməliyik ki, Azərbaycanın ötən dövrdə regionda aparıcı dövlətə, dünyada söz sahibinə çevrilməsi nəinki qlobal mövqelərimizi gücləndirib, həm də respublikamıza qarşı olan qlobal ehtiram və etimadı artırıb. Azərbaycanın 2019-2023-cü illərdə BMT-dən sonra ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrliyi də bu etimadın təzahürü idi.

Bu ilin noyabrında isə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. COP29 sıradan bir beynəlxalq tədbir deyil və ona ev sahibliyi etmək dövlətin qlobal nüfuzu və mövqeyi ilə əlaqəli olan bir məsələdir. Bu baxımdan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu Prezident İlham Əliyevin növbəti təntənəli uğurudur. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük nailiyyətidir. Eyni zamanda bu qərar Azərbaycana qarşı çirkin kampaniya aparan siyasi dairələrə və qaraguruhçu qüvvələrə də tutarlı cavabdır.

COP29 Azərbaycanın dünyaya yeni təqdimatı baxımından mühüm siyasi hadisə olacaq. Bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin uğurlarını, inkişafını, Vətən müharibəsindəki zəfərimizi bir daha dünyaya bəyan edəcək.

Sonda qeyd etmək istərdim ki, beynəlxalq təcrübədə belə 100 günlük müddət yeni seçilmiş prezidentin həm də özünü təsdiq etməsi baxımından mühüm siyasi qymətləndirmə hesab olunur. Lakin söhbət İlham Əliyev kimi liderlərdən gedirsə, belə dövlət başçılarının özlərini təsdiq etməsinə qətiyyən ehtiyac yoxdur. Çünki İlham Əliyevin ötən 20 ildəki fəaliyyətinin nəinki hər prezidentlik müddəti və ya hər ili, hər ayı, hər günü belə özünütəsdiqin ən mükəmməl nümunəsidir.




# 4 kəndin məsələsi

***Azərbaycan suveren ərazilərini qarış-qarış, addım-addım geriyə, özünə qaytarır. Postmüharibə dövründə 44 günlük müharibədən yarımçıq qalmış işlər də sonuncu antiterror tədbirləri ilə tamamlandı.***





Bu gün Ermənistanla Azərbaycan sərhədlərin delimitasiya və demarkasiya prosesini həyata keçirməkdədirlər. Hər iki ölkənin dövlət komissiyaları Qazax rayonunun 4 qeyri-anklav kəndlərinin Azərbaycana təhvil verilməsi prosesini başa çatdırıblar, 12,7 km uzunluğunda sərhəd xətti artıq müəyyənləşib. Bununla da Qazax rayonunun işğaldakı 4 kəndi - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 km2) Azərbaycana qaytarılması təmin edilib. Hazırda növbədə işğal altında qalan Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Naxçıvanın Sədərək rayonunun Kərki kəndlərinin geri qaytarılmasıdır. Bu kəndlər Azərbaycan üçün esklav, Ermənistan üçün anklav kəndlərdir.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qaytardığı Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri indiyə kimi boş olsa da, işğal altındakı esklav kəndlərimizdə ermənilərin qanunsuz məskunlaşması həyata keçirilib. Məsələn, Naxçıvanın Kərki kəndində 150-dək erməninin məskunlaşdığına dair məlumatlar var. Danışıqların növbəti mərhələsində Ermənistan tərəfinin də Gədəbəy rayonunda yerləşən Başkəndlə bağlı məsələ qaldıracağı istisna olunmur. Bu barədə erməni mənbələri də yazırlar. Sahəsi 40 kv.km olan Başkənd 1992-ci ilin avqustunda erməni işğalçılarından təmizlənib.

### İşğal tarixi

Qazax rayonunun Bağanıs Ayrım kəndi 1990-cı ilin martın 23-dən 24-ə keçən gecə əvvəlcədən təşkil edilən plan əsasında ermənilər tərəfindən işğal edilib. Bununla da Ermənilərin işğal etdiyi ilk Azərbaycan kəndi kimi tarixə düşüb. İşğal zamanı Bağanis Ayrım kəndinin əli silahsız, günahsız əhalisinə qarşı tarixdə görünməmiş divan tutulub, 10 nəfər öldürülüb, 15 nəfərdən çox insan isə yaralanıb. 100-dən çox evi olan kənd talan edilib, əhalinin kənddən çıxara bilmədiyi ev əşyaları və mal-qara ermənilər tərəfindən mənimsənilib. Xüsusi strateji əhəmiyyətli Bağanis Ayrım kəndi İcevan – Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən düşmən gələcəkdə daha rahat hərəkət etməsi üçün bu kəndin işğalı xüsusi plan əsasında həyata keçirilib. Kənddə işğal olunan zaman 600 nəfər yaşayıb.

Barxudarlı və Sofulu kəndlərinə ermənilərin hücumu 1992-ci ilin aprelin 23-dən başlayıb və çətinliklə də olsa onlar bu kəndləri aprelin 27-də işğal ediblər. Bir neçə gün davam edən döyüşlərdə kənd sakinləri Barxudarlıda 11, Sofuluda 9 post quraraq ermənilərə qarşı döyüşüblər. Qazax rayonundan köməyə gələn olmasın deyə, bura gələn dəmir yolu xəttidə ermənilər tərəfindən partladılıb. Sofulu və Barxudarlı yalnız 4 gün mühasirədə saxlanıldıqdan sonra çətinliklə işğal edilib. Ümumilikdə 530 nəfər öz evlərini məcburi şəkildə tərk etməli olub. Hazırda Barxudarlı və Sofulu kəndlərindən olan məcburi köçkünlərin 85%-i Qazax şəhərinin mərkəzində, digərləri isə rayonunun müxtəlif ərazilərində məskunlaşıblar.

### Paşinyanın sərhəd sərgüzəştləri

Kəndlərin geri qaytarılmasının qaçılmaz olduğunu anlayan Ermənistan bəzi planlar qurmağa çalışsa da, qalib Azərbaycanın təzyiqləri qarşısında tap gətirməyərək sonunda sərhədlərin delimitasiya və demarkasiya prosesinin həyata keçirilməsinə razılıq verib. Revanşistlərin Qazax rayonu ilə qonşu erməni kəndlərində apardığı təbliğat nəticəsində vəziyyət gərginləşsə də sonra bütün işlər öz məcrasına düşməyə başlayıb. Baş nazir Nikol Paşinyanın Ermənistanın Tavuş rayonunun sərhəd kəndlərinə səfəri və yerli sakinlərlə görüşdə səsləndirdiyi bəyanatların da ermənilərə az təsiri olmayıb. Yəni Baş nazir reallığı danışıb və sakinləri nələr gözləyə biləcəyini onlara anladıb.

Paşinyan Voskepar kəndinin sakinləri qarşısında çıxışında xəbərdarlıq edib ki, Ermənistan tərəfi Azərbaycanla delimitasiya və demarkasiya məsələlərini müzakirə etməkdən imtina etsə, "həftənin sonuna qədər" yeni müharibə ola bilər. "İmtina etsək, bu, o deməkdir ki, həftənin sonunda müharibə olacaq. Və mən bu müharibənin sonunda nə olacağını bilirəm. Sonra Respublika meydanında qarşılaşanda deyəcəksiniz: "Yaxşı, biz adi kəndlilərik, bizim məlumatımız yox idi, amma, axı siz hər şeyi bilirdiniz", deyə Paşinyan bildirib. Ermənistan çıxış yolunu Azərbaycanla müharibəyə yol verməməkdə gördü, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlamaq üçün real imkanların yarandığını anladı.

Postmüharibə dönəmi və sərhədlərimiz 2020-ci ildə İkinci Qarabağ Müharibəsi başa çatdıqdan sonra Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli atəşkəs bəyannaməsi imzalandı. Rusiya KİV-i tərəfindən yayılan bəyannamənin ilkin variantında Ermənistanın Qazax rayonunda işğal etdiyi ərazilərə nəzarəti Azərbaycana qaytarması nəzərdə tutulurdu. Buna baxmayaraq, müqavilənin bir neçə saat sonra Kreml tərəfindən dərc edilən rəsmi versiyasında Qazax rayonu haqqında heç bir müddəa mövcud deyildi. Azərbaycan mediasındakı iddiaya görə, bəyanatın dəyişdirilməsi iki tərəf arasında əldə olunmuş şifahi razılaşma ilə bağlıdır və buna görə, onlar kəndlərin qaytarılmasını yazılı müqaviləyə daxil etməməyi qərara alıblar.

Qazaxın işğal olunmuş kəndləri ilə bağlı məsələ Ermənistanda ilk dəfə 2021-ci ilin mayında Ermənistanın keçmiş prezidenti Serj Sərkisyanın kürəkəni Mikayel Minasyan sosial şəbəkədə Paşinyanın Ermənistanın nəzarəti altında olan səkkiz kəndi (anklavlar da daxil olmaqla) Azərbaycana qaytarmağı planlaşdırdığını iddia etdikdən sonra diqqət çəkib. Minasyanın iddiası Ermənistan cəmiyyətində qəzəb doğursa və paytaxt İrəvanda iki günlük etiraz aksiyasına səbəb olsa da, məsələ tezliklə unudulmuşdu. 2023-cü ilin oktyabrında Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə (Charles Michel) telefon danışığı zamanı bu məsələyə toxunması ilə kəndlər mövzusu yenidən gündəmə gəlib. Söhbət zamanı Əliyev Azərbaycanın səkkiz kəndinin hələ də erməni işğalı altında olduğunu bildirib və bu kəndlərin işğaldan azad edilməsinin vacibliyini vurğulayıb. İlham Əliyev 2024-cü ilin yanvarında yerli mətbuata müsahibəsi zamanı bu məsələni yenidən gündəmə gətirərək söyləmişdi: "O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir, həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır".

### Nəticədə

Azərbaycan ərazi bütövlüyünü bütün beynəlxalq qanunlar və normalar çərçivəsində bərpa edib və yarımçıq qalmış işlərini də həyata keçirməkdədir. Qazax rayonunun 4 qeyri-anklav kəndlərinin bir güllə atmadan, danışıqlar yolu ilə, həm də Azərbaycan Prezidentinin bir kəlməsi ilə qaytarılması bizim uğurumuzdur. Bu kəndlər 1990-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin ilkin mərhələsində Qarabağdan kənarda gərginlik yaşayan ilk sərhədyanı ərazilərdən biri idi. Həmin kəndlərin işğalı zamanı ermənilər misli görülməmiş vəhşiliklər törətmişdilər, kənd sakinləri vəhşicəsinə qətlə yetirilmişdilər. Belə bir acı tarix yaşamış kəndləri erməni işğalında qoymaq qeyri-mümkün olduğundan Azərbaycan Prezidenti İlham Əliyev bütün görüşlərində Qazax rayonunun və Naxçıvanın eksklav və digər 4 kəndin azad edilməsinin vacibliyini diqqətə çatdırırdı. Və nəticə də göz qabağındadır, həmin kəndlərin dördü artıq geri qaytarılıb, qalan kəndlərin də azad ediləcəyi gün uzaqda deyil.

Xalqımızın uzaqgörənliyi, müdrikliyi, düzgün qərarı və sərrast seçimi bu gün əldə etdiyimiz uğurların əsasıdır. Qazanılan nailiyyətlər bir daha sübut edir ki, İlham Əliyev dövlətimizin və xalqımızın həyatında taleyüklü məsələləri vaxtında və dəqiq, möhtəşəm qələbələrlə həll etməklə bütün ümidləri layiqincə doğruldub. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin hər bir məqamı bizim uğur salnaməmizdir. Məhz onun gərgin zəhmətinin, düşünülmüş qərarlarının, qətiyyətli və müdrik mövqeyinin göstəriciləridir ki, Azərbaycan dünyada nüfuz sahibinə çevrilib və Azərbaycanın dünyanın qüdrətli dövlətlərindən biri olduğunu fəxrlə deyə bilərik.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti görüşündə işğal altında olan 4 qeyri-anklav kəndin Azərbaycana qaytarılması razılaşdırılıb və bu gün artıq həmin kəndlərdə sərhədçilərimiz dayanır. Bu, xalqımızın növbəti müdhiş qələbəsidir və bunu bizə bəxş edən isə şəksən müzəffər sərkərdəmiz, qətiyyətli Liderimiz İlham Əliyevdir". O, heç bir atəş səsi eşidilmədən, güllə atılmadan, itkisiz, qan tökülmədən bu Zəfəri bizə hədiyyə etdi. Televiziya vasitəsilə həmin kəndlərin sakinlərinin sevincini qürurla izlədik. Bütün xalqımız bu qələbənin yaratdığı xoş ovqatın içindədir. Hadisələrin gedişi göstərir ki, Azərbaycan Prezidenti bütün prosesi zərgər dəqiqliyi, məntiqi ardıcıllıq, yüksək siyasi iradə və qətiyyətli addımları ilə davam etdirir.

***V.VƏLİYEV***

# Şərqin ilk Demokratik Respublikası

***Azərbaycan dövləti öz tarixində çoxsaylı qəhrəmanlıq salnaмələri yazıb. Bu tarixi hadisələr içərisində müsəlman Şərqində ilk demokratik Respublika Xalq Cümhuriyyətinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının həyatına əlamətdar tarixi hadisə kimi daxil olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də "İstiqlal Bəyannaməsi"nin elan olunması ilə yaranmışdır.***

İstiqlal Bəyannaməsinin qəbul edilməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi: Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

71 il sovet dövründə yaşayan Azərbaycan, müstəqilliyini bərpa etdikdən sonra, hər il ölkəmizdə 28 May Müstəqillik Günü böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramın nümunəsi kimi tarixiləşdi.

Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.

1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının xidmətləri danılmazdır. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu.

### AXC BÜTÜN ÖLKƏ VƏTƏNDAŞLARINA EYNİ HÜQUQLAR VERDİ

1991-ci ildə müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı.

Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən, təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maariflədirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanunilәşdirilib.

### MİLLİ TƏHSİL OCAĞININ ƏSASI QOYULDU

1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu. Demokratik Respublika dövründə kitabxana və muzey işinin qurulușunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

AXC dövründə Azərbaycanda ilk muzey "İstiqlal" Muzeyi təşkil olunmuşdur. Eyni zamanda, Bakıda Etnoqrafiya Muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.




**Prezident İlham Əliyev: "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik"**

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı.

### ÖLKƏNİN SƏHİYYƏ SİSTEMİ YARADILDI

Sağlam cəmiyyətlərdə vətəndaşların sağlıq durumunun qorunması həmişə önə çəkilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də bütün sahələrdə olduğu kimi, səhiyyə xüsusi diqqət ayırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı gündən əhalinin sağlamlığı qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər görmüşdür. Tarixi mənbələrdə qeyd olunduğu kimi, bu sahədə ən böyük uğurlardan biri ölkənin səhiyyə sisteminin yaradılması və təşkili işlərinə bilavasitə rəhbərlik edən dövlət icra orqanının - Səhiyyə Nazirliyinin yaradılması idi. Belə ki, Xalq Cümhuriyyəti hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar idi. Nazir vəzifəsinə 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi. Nazirliyin 5 əsas şöbəsi - şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, əhaliyə tibbi xidməti yaxınlaşdırmaq, epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün də hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında çox ciddi vəzifələr qoymuşdu. Onlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımi şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

Səhiyyə şəbəkəsinin genişləndirilməsinə başlandı. Kənd yerlərində xəstəxanalar, ambulatoriyalar, feldşer məntəqələri və s. müalicə müəssisələri açıldı, yeni tibb ocaqlarının bünövrəsi qoyuldu. Dövlət tibb müəssisələrini dava-dərmanla, avadanlıqlarla təmin etmək məqsədilə lazımi tədbirlər görüldü. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sağlamlığın mühafizəsinə dair vəzifələr və tədbirlər barədə bir sıra qanun və qərarlar qəbul etdi. Cümhuriyyət Hökuməti tibb xidməti heyətini genişləndirmək məqsədilə səhiyyə sistemində qısamüddətli tibb işçiləri kursları açdı. Bütün bunların nəticəsi idi ki, Xalq Cümhuriyyəti dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası fəaliyyət göstərirdi. Onların hər birində 1 həkim, 2 feldşer və xidmətçi tibb bacıları işləyirdi. Bu tibbi personal 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi. Bu dövrdə qeyri-hökumət tibbi cəmiyyət, birlik və təşkilatlarının da fəaliyyəti geniş vüsət almışdı. Bakı şəhəri həkimlər cəmiyyətinin əsas fəaliyyət istiqaməti sənaye gigiyenası, yatalaq epidemiyasının aradan qaldırılması olmuşdur. Cəmiyyət Bakı Dövlət Universiteti tibb fakültəsinin avadanlıqla təchiz edilməsinə yardım göstərmək üçün Avropanın aparıcı klinikaları ilə əlaqə yaratmışdı. Bakının tanınmış həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə məruzələr edirdilər. Onun nəzdində boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara vaxtaşırı yardım göstərmək məqsədilə Həkimlərə yardım bürosu yaradılmışdı. 1919-cu ildə Bakıda təsis edilmiş qeyri-hökumət tibb cəmiyyətlərindən biri də Uşaq həkimləri dərnəyi idi. Dərnək uşaqlar və yeniyetmələr arasında yayılmış yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərir, təbliğat və təşviqat işi ilə məşğul olurdu. 1920-ci ilədək Azərbaycanda, artıq 353 həkim, 450 orta tibb işçisi, 1123 yerlik xəstəxana var idi. 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmiş və bunun üçün 43 milyon 321 min 950 manat pul ayırmışdı. Səhiyyənin dərman preparatları ilə düzgün təminatı tibbi-sağlamlıq işinin başlıca cəhətlərindən biridir. Elə bu səbəbdən də həmin dövrdə Səhiyyə Nazirliyinin əczaçılıq şöbəsi dərman preparatlarının alınmasını öz əlində cəmləşdirmişdi. Bakıda dövlət apteki və onun nəzdində dərmanların, bakterioloji preparatların, müalicə zərdablarının hazırlanması və tibbi-məhkəmə müayinələrinin aparılması üçün analitik laboratoriya təşkil olunmuşdu. Eyni zamanda, Bakıda yeni şəhər ambulatoriyaları, 9 aptek işə başlayaraq xəstələrə pulsuz xidmət göstərirdi.

### "MÜSTƏQİLLİK YOLUNDA BİZİM İNKİŞAFIMIZ DAVAMLI OLACAQ, UĞURLU OLACAQ"

Çox keçmədi ki, Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilmədi və 1991-ci ildə sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 71 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı, hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qazax rayonunun azad olunan dörd kəndində Azərbaycan Bayrağı ucaldılıb





Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülən Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb, Dövlət Himni oxunub. AZƏRTAC Azərbaycan Bayrağının qaldırılmasına dair videogörüntüləri təqdim edir.

Qeyd edək ki, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə aparılan işlər nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən olunub. Bununla da Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrımın, Aşağı Əskiparanın, Xeyrımlının və Qızılhacılının ərazilərinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edilib.

# “Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar”

Mayın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası, YAP Yasamal rayon təşkilatı və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə 28 May-Müstəqillik Günü münasibətilə “Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar” mövzusunda konfrans keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev yaradılmasının 106-cı ildönümünü qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki rolundan bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqının XX əsrin əvvəlində Şərqdə ilk demokratik respublika yaratması mühüm tarixi nailiyyətdir.





Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın dövlətçilik ənənələrində özünəməxsus yer tutur. O dövrdə Xalq Cümhuriyyəti müəyyən səbəblərdən süqut etdi. Lakin xalqımız XX əsrin sonunda yenidən azadlığa qovuşdu və dövlət müstəqilliyini bərpa etdi. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycanın sarsılmaz bünövrəsini yaratdı, dövlətçiliyimizin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Bu gün Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müasir müstəqil Azərbaycan dövləti dünyada böyük nüfuza malikdir.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz ən qüdrətli dövrünü yaşayır: “Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafını təmin edən məqsədyönlü və düşünülmüş siyasətinin uğurları, dövlətimizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, beynəlxalq miqyasda nüfuzlu dövlətə çevrilməsi hər bir vətəndaşı qürurlandırır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi üçrəngli bayrağımızın bu gün Şuşada, Xankəndidə dalğalanması, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bayrağımızı azad edilmiş bütün ərazilərdə qürurla ucaltması xalq olaraq bizi həddsiz dərəcədə iftixarlandırır. Bu, ölkə başçısının gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir”.

Bakı Dövlət Universitetinin prorektoru Əliş Ağamirzəyev çıxışında bildirib ki, milli dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyəti müstəsna yer tutur. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə demokratik ənənələrin formalaşmasına əhəmiyyətli təsir göstərib. Onun sözlərinə görə, Xalq Cümhuriyyətinin uğurlarından biri də 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasıdır. Bu gün milli dövlətçilik ənənələrimizin davam etdiyini deyən Ə.Ağamirzəyev qeyd edib ki, müstəqil Azərbaycan böyük zəfərlər qazanaraq adını tarixə qızıl hərflərlə yazdırıb: “Ən mühüm nailiyyət isə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərimiz dirçəlir, cənnət məkana çevrilir. O cümlədən Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması böyük əhəmiyyət kəsb edir”.



Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. Tarixçi kimi elmi işinin XX əsrin əvvəllərində azərbaycanlı deputatların Rusiya Dumasında fəaliyyəti ilə əlaqədar olduğunu deyən D.Seyidzadə həmin dövrdəki deputatların xalqımız üçün böyük işlər gördüklərini söyləyib: “Onlar əsl vətənpərvər ziyalılar idi. Bu insanların fəaliyyəti Xalq Cümhuriyyətinə gedən yolda böyük rol oynayırdı. Onlar fəaliyyətləri ilə cəmiyyətimizi bu prosesə hazırlayırdılar. Nəticədə 1918-ci ilin mayında Xalq Cümhuriyyəti elan olundu. Cümhuriyyət dövründə ana dilində məktəblər açıldı, qadınlara səsvermə hüququ verildi, bir sıra mühüm qanunlar qəbul olundu və digər önəmli addımlar atıldı. Lakin o dövrdə mürəkkəb geosiyasi proseslər baş verirdi və həmin proseslər fonunda Cümhuriyyət cəmi 23 ay yaşaya bildi”.

YAP Veteranlar Şurasının üzvü deyib ki, müstəqil dövlətimizi qorumaq, onu sevmək hər bir vətəndaşımızın borcudur. Doğma vətəni sevməyin ən böyük nümunəsini Ulu Öndər Heydər Əliyev göstərib. Heydər Əliyev dövlət başçısı kimi xarici səfərlər zamanı Azərbaycanı böyük sevgi ilə dünyaya təqdim edirdi. “Hər bir xalq öz tarixini dərindən öyrənməlidir. Biz tariximizi öyrəndikcə azərbaycanlı olduğumuz üçün fəxr edirik. Bu gün Prezidentimiz İlham Əliyev öz siyasəti ilə müstəqil dövlətimizi daha da gücləndirir”, - deyə D.Seyidzadə vurğulayıb.

Bakı Dövlət Universitetinin dosenti Xumar Səfərova çıxışında bildirib ki, Xalq Cümhuriyyəti dövründə Azərbaycanın ilk parlamenti, hökuməti yaradılıb, dövlət atributları təsis olunub, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib. Eləcə də Cümhuriyyətin beynəlxalq səviyyədə tanınması istiqamətində mühüm addımlar atılıb. Parlamentin qəbul etdiyi qanunlar müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynayıb. Onun sözlərinə görə, Cümhuriyyət qurucularının xidmətləri daim xalqımız, dövlətimiz tərəfindən yüksək dəyərləndirilir, onların əziz xatirəsi hər zaman uca tutulur.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, Yeni Azərbaycan Partiyasının sıralarına qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.





# Uşaqlığı olmayan uşaqlar kimin əsəridir?








***Dünyada yaşanan bütün texnoloji və sosial inkişaflara baxmayaraq, biz hələ də uşaqların fiziki, əqli və mənəvi cəhətdən istismar edildiyinin şahidi oluruq. Xüsusən də, münaqişələrin intensiv olduğu bölgələrdə ən çox zərər çəkənlər uşaqlardır. Həyatlarının lap erkən illərində müharibənin nə demək olduğunu görən və ən çox zorakılığa, istismara, təcavüzə məruz qalan uşaqlar gələcəkdə yaşadıqları travmaların təsirini bütün həyatları boyunca öz çiyinlərində daşıyırlar.***

1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqları ilə yanaşı minimum həyat şərtlərini də müəyyən edir. Bu konvensiya, ayrı-seçkiliyə yol verilməməsi, uşağın hüquqlarını ümumiləşdirən dörd əsas prinsip əsasında hazırlanıb. Bu kontekstdə münaqişə bölgələrində yaşayan uşaqların vəziyyəti bu razılaşma ilə tamamilə ziddiyyət təşkil edir. Konvensiyada aydın şəkildə göstərilir ki, hər bir uşaq özünəməxsus ləyaqətə, bərabər və ayrılmaz hüquqlara malikdir və bu vəziyyət qorunur.

Bu qərarın qəbul edilməsindən 40 ilə yaxın vaxt keçməsinə baxmayaraq, 1982-ci ildən bəri çox şeyin dəyişmədiyini görmək kədərlidir. Dünyanın bir çox yerlərində hələ də müharibələr davam edir və bu müharibələrdən ən çox uşaqlar əziyyət çəkir. Hər gün televiziyalarda, qəzetlərdə gördüyümüz, oxuduğumuz xəbərlərdə bu proseslərin qurbanı olan minlərlə uşaq görürük.

BMT-nin Uşaq Fondunun (UNICEF) açıqladığı məlumatlara görə, 2019-cu ildə münaqişə və zorakılıq nəticəsində məcburi köçkün olan uşaqların sayı 19 milyon nəfərə çatıb ki, bu da indiyədək ən yüksək səviyyədir. UNICEF-in "Öz ölkəsində itkin düşənlər" hesabatına əsasən, məcburi köçkün uşaqların ən primitiv haqlarına belə çıxışı yoxdur. Əksinə, onların böyük qisminin zorakılıq, istismar və insan alverinin qurbanı olmaq riski var. COVID-19 epidemiyası, habelə müharibələr səbəbi ilə evlərindən didərgin düşmüş uşaqların vəziyyətinin daha da pisləşdiyi bildirilən hesabatda uşaqların qeyri-sağlam şəraitdə yaşadığı bildirilir.

Bundan əlavə, Save the Children Fondunun "Uşaqlara qarşı müharibəni dayandırın 2020" hesabatına əsasən, 2018-ci ildə 415 milyon uşaq münaqişə zonalarında yaşayır ki, bunun da 149 milyonu gərgin münaqişə zonalarındadır. Bu rəqəmə nəzər saldıqda, demək olar ki, hər altı uşaqdan birinin münaqişə zonasında yaşadığını görə bilərik. Bu vəziyyət həm də uşaqların müharibələrdə əsgər kimi istifadə edilməsinə şərait yaradır və uşaqların müharibənin hər sahəsində istismar edilməsi deməkdir.

Pedofillərin də ilk hədəfi çox vaxt yetim və kimsəsiz uşaqlar olur. Ümumdünya Səhiyyə Təşkilatının 2017-ci ildə apardığı araşdırmaya görə, dünyada uşaqların 23%-i fiziki, 18%-i qızlar, 8%-i oğlanlar, cəmi 26%-i cinsi, 36%-i isə emosional zorakılığa məruz qalır.

2019-cu ildə hazırlanan və 40 ölkəni əhatə edən araşdırmada uşaqlar üçün ən təhlükəsiz ölkələr 100 balla indeksləşdirilib. İlk 10-luqda ümumilikdə iqtisadi gəlirləri yüksək olan ölkələr bunlardır: İngiltərə (82,7), İsveç (81,5), Kanada (75,3), Avstraliya (74,9), ABŞ (73,7), Almaniya (73,1), Cənubi Koreya (71,6), İtaliya (69,7), Fransa (65,2) və Yaponiya (63,8).

Ümumdünya Səhiyyə Təşkilatının 2020-ci ildə paylaşdığı hesabata görə, həmin il 2-17 yaş arası təxminən 1 milyard uşaq, fiziki, cinsi və ya emosional zorakılığa məruz qalıb. "World Vision" təşkilatının məlumatına görə, dünyada hər il 1 milyard 700 milyon uşağın zorakılığa məruz qalır. Dünyada hər 10 uşaqdan 6-sı valideynləri tərəfindən fiziki cəzalandırılır. Uşaqların 10 faizi fiziki cəzadan qanunla qorunmur. Aşkar edilmiş insan alveri hallarında 28 faiz qurban uşaqlar olur. Dünyada 50 milyona yaxın uşaq məcburi köçkün vəziyyətindədir. Hər il 15 yaşa qədər 41 min uşaq məişət qətli nəticəsində dünyasını dəyişir.

Təəssüf ki, texnologiyanın ən inkişaf etdiyi bu günlərdə hələ də müharibələrin getdiyi, uşaqların hər mənada istismar edildiyi bir dünyanın inkişaf etdiyini söyləmək mümkün deyil. Ancaq uşaqların qorunması, müdafiəsi günlərində yada düşən problemlər elə yazdığımız yazılarda, müzakirə edilən dəyirmi masalarda, təşkil edilən seminar və təlimlərdə qalır. Müharibə, aclıq, səfalət olan ölkələrdə yaşanan ağrıların və davam edən problemlərin illərdir heç dəyişmədiyini görmək kədərlidir. Bu sahədə həll yolları axtaran qurumlara dəstək olmaq, maarifləndirmək hər bir insanın əsas vəzifəsi olmalıdır.

***Lalə Mehralı***

# Erkən nikah: övladımıza kölə kimi baxmayaq...

***Erkən nikaha sövq etmək, razılıq vermək, ümumilikdə insanlığa qüsurdur. Bu, valideynlik kimi böyük məsuliyyəti çiyinlərinə alan ata-ananın, bəzən nənə-babanın, yaxın qohumların hər birinin günahıdır. O günah ki, doğma balasını, nəvəsini öz əlləri ilə oda atmaq, onun gələcəyini baltalamaq, arzularının, istəklərinin üzərinə qara kabus çökdürmək anlamındadır. Sabahı görə bilməmək, övladının nələrlə üzləşəcəyini düşünməmək kimi hisslərdən məhrum olmaq deməkdir.***

Təəssüflər olsun ki, XXI əsrə gəlib çıxmağımıza baxmayaraq hələ də köhnə fikirli insanlar var. İllərdir bu nikahların acı nəticəsini görə-görə yenə də səhvə yol verirk. Çox təəssüf ki, bütün dünyada olan bu problem ölkəmizdə də var və bu qədər maarifləndirmə işlərinin aparılmasına baxmayaraq davam edir. Bu barədə danışaq.

## Qadın, həyat yoldaşı, ana olmağa hazırsanmı?

Bəli, övladımıza kölə kimi baxanda, onun hüquqlarını tapdalayanda və ya heç bir hüququnun olmadığını zənn edəndə onu erkən nikaha sövq edirik. Statistik məlumata əsasən 2022-ci ildə ölkəmizdə 270 18 yaşadək qız nikaha daxil olub. Bunun illər üzrə ən yüksək göstərici kimi, 1993-cü ildə 5044, 2007-ci ildə 5023, 2008-ci ildə 5544, 2011-ci ildə 5138 qızın erkən nikaha daxil olması qarşısında zəif qalmasının səbəbi 2012-ci ildən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən nikah yaşının 18 yaş müəyyən edilməsi ilə bağlıdır. Qanunvericiliyə əsasən üzrlü səbəblər olduqda nikah yaşı 1 ildən çox olmayaraq azaldıla bilər. Belə olan halda 270 nəfərin hamısına üzrlü səbəb də şamil edə bilmərik. Çünki belə olarsa, digər üzrlü səbəbi çıxmaq şərtilə, bu da bizim qüsurumuzdur. Deməli, övladımıza düzgün tərbiyə verə bilməmişik, onu doğru yetişdirməyi bacarmamışıq.

270 18 yaşa çatmayan qızın nikahı 270 valideynin, 2-yə vuranda isə 540 nəfərin günahıdır. Bu, hələ rəsmi statistikadır, qeydiyyata alınmamış onlarla belə nikah var ölkəmizdə. Deməli, 270 nəfər qız öz ailəsi tərəfindən istismar olunub, onların hüquqları valideynləri tərəfindən əlindən alınıb. Və yaxud da hüquqlarının nədən ibarət olduğu bu qızlara təlqin olunmayıb. Beləliklə də onlar erkən nikaha daxil olublar və bu da onların gələcək psixoloji vəziyyəti üçün zəmin yaradıb. Axı onlar həyatın, ailənin, qayınana-qayınata, ər qayğısının, uşaq doğmağın, onu böyütməyin nə olduğunu yetəri qədər anlamırlar.

Uşaqdan söz düşmüşkən, 2022-ci ildə ölkə üzrə 18 yaşınadək analar tərəfindən 2011 uşaq doğulub. Bu isə o deməkdir ki, 2011 uşaq ya ölümlə və ya baxımsızlıqla qarşı-qarşıya qalıb. Çünki onları dünyaya gətirən ananın hələ özünün qayğıya ehtiyacı var.

Maraqlıdır, qızlarını erkən ərə verən valideynlər onlara heç sual verirlərmi ki, qızım, sən qadın, həyat yoldaşı, ana olmağa hazırsanmı? Ümidvaram ki, bu sualı versələr, cavabında çarəsiz baxan gözlərlə qarşılaşarlar.




## Erkən nikaha ciddi cəza son qoya bilər

Erkən nikaha bütün regionlarda, hətta paytaxtda da rast gəlmək olur. Belə nikah haqqında statistikanın nə göstərməsindən asılı olmayaraq, hər kəsə məlumdur ki, o, daha artıqdır. Və belə qənaətə gəlmək olur ki, nə qədər ki, erkən nikaha sövqetmədə ağır cəza qaydaları tətbiq olunmayıb, bu, belə də davam edəcək.

Söhbətimizin bu yerində bir neçə gündür, medianın gündəmi olan bir erkən nikah haqqında danışmaq istəyirəm. Ağcabədi rayonunda 14 yaşlı Səbinənin ata və nənəsinin razılığı ilə özündən 11 yaş böyük Tufanla ailə qurması və bu hadisənin 6 aydan sonra üzə çıxması yenə də erkən nikahla bağlı həllini tapmayan məsələnin müzakirəsinə səbəb oldu.

Hadisənin üstü açılandan sonra Ağcabədi Rayon Məhkəməsinin hökmü ilə Tufan1 il 2 ay həbs cəzası verilib. Bu, çox az cəza müddətidir. Bir uşağın həyatını məhv etməkdən 1 il 2 ay cəza ilə yaxa qurtarılırmı? Bəs sonra necə olacaq? Cəzasını çəkəndən sonra nə baş verəcək? Bu qızın taleyi necə olacaq? Axı o, artıq qadındır, hələ üstəlik ana da ola bilər.

Biz bu təfəkkürlə əsrlər öncəyə qayıdırıqmı? Yoxsa, nə edirik? Bu ixtiyarı kim verir qızın ata və nənəsinə ki, azyaşlı qızı ərə verir? Onların hər ikisi haqqında ciddi cəza tədbiri görülməlidir. Beləlİəri cəza almadıqca cəmiyyətdə fikir formalaşır ki, nə istəsək edə bilərik, odur, filankəsə heç buna görə cəza verən olmadı.

Kütləvi informasiya vasitələri, aid qurumlar erkən nikahların qarşısının alınması, bununla uşaq ölümlərinin, boşanmaların da azalması məqsədilə mübarizə apardığı bir vaxtda belə hadisələrin baş verməsi insanların dünyadan xəbərsiz olması təsəvvürünü yaradır. Görünür, regionlarda bu sahədə maarifləndirmə tədbirləri hələ də lazımi səviyyədə deyil. Yəni bu nikah haqqında o böyüklükdə rayonda heç bir aid qurum xəbər tutmayıb? Bu, onlara sual olunmalıdır.

Bu sahədə ciddi cəza mexanizmi tətbiq olunmalıdır. Elə bir mexanizm ki, qorxu effektində olmalı, bu fikrə düşənləri çəkindirməlidir. Yoxsa görünür ki, belə insanlarla başqa cür mümkün olmayacaq.

Məlum hadisə ilə bağlı söhbətləşdiyimiz jurnalist-sosioloq Lalə Mehralı nəzarət və cəza sisteminin təkmilləşdirilməsi və sərtləşdirilməsi fikrindədir: Zənnimcə, dövlət bəzən erkən nikaha rəvac verən insanlara, uşaqların valideynlərinə, qarşı tərəfə humanist davranır. Xüsusilə də qız uşaqlarının erkən nikaha cəlb edilməsi ilə bağlı məsuliyyətə cəlbedilmə məsələsində valideynlərlə yanaşı, qızla evləndirilən adam da məsuliyyət daşıyır. Çox vaxt bu adam yaşı çox olan biri olur, amma yaşına görə etdiyinin fərqində olmur. Qanunlarımız humanist davranır bu adamlara. Uşaqları erkən nikaha məcbur etmək eyni zamanda bir neçə hüquqlarının əlindən alınması deməkdir. Erkən nikah təhsil hüququnun məhdudlaşdırılması və ya tamamilə əlindən alınması, bədən toxunulmazlığının pozulması, istismarı deməkdir. Bu baxımdan dəyərləndirsək, həm uşaq istimarı, həm erkən evlilik, həm də təhsil hüququnun əlindən alınmasına görə analiz aparılıb cəza tətbiq olunmalı, sərtləşdirmə bu ümumi nəticəyə görə olmalıdır.

Sosioloq deyir ki, istisna hal kimi erkən evlilik halı yolverilən dir – sadəcə 17 yaş həddində. Bu yaşda orta təhsilini başa vurmuş olur, fizioloji göstəriciləri də imkan verirsə, qanun bəzən icazə verə bilir bu yaşda nikaha. Lakin bu, istisnadır, qanun təyin etdiyi 2 üzrlü səbəbdən birinə görə mümkündür. Bu icazə bütün evliliklərin bu yaşda ola biləcəyi demək deyil. Valideynlər bunu anlamalıdır.

## Erkən nikaha tibbi yanaşma

Erkən nikahın mənəvi tərəfləri kimi, tibbi tərəfi də vardır. Bu, sonrakı dövrdə özünü göstərir. Ginekoloq Ayşən Məmmədli qeyd edir ki, erkən nikah həm qadın, həm də kişi üçün müxtəlif problem deməkdir. Gələcək nəsillərin sağlamlığı yeniyetmə qızların - gələcək anaların sağlamlıq vəziyyətindən birbaşa asılıdır. Erkən nikahda fiziki və psixoloji baxımdan hazır olmadan hamiləlik baş verir, bu zaman doğuş və ölüm riski yaranır, nəticə etibarilə isə ana və uşaq ölümlərinin sayı artır. Həmçinin yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər yaşanır.

Fizioloji cəhətdən ideal doğuş yaşı 20-30 arasında olmalıdır. Qadınlar tez ana olduqda orqanizm hamiləliyi özünə yad cisim kimi hesab edər və hormonlarda problem yarana bilər. Qadının dünyaya uşaq gətirməsi üçün ən az yaş 20-dir. Tədqiqatçılar hesab edirlər ki, əgər erkən nikahların sayı 10 faizə qədər azalarsa, bu, bütövlükdə 70 faizə qədər ana və uçaq ölümünün azalmasına gətirib çıxarar.

Bundan başqa, erkən nikahların və erkən hamiləliyin yalnız ana və körpə üçün deyil, cəmiyyət üçün də mənfi fəsadları ola bilər. Belə ki, təhsilsiz və nikahsız gənc ananın problemi təkcə onun cəmiyyətin inkişafı üçün töhfə vermək imkanından məhrum olması ilə bitmir, o, hətta ailəsi ilə birlikdə bu cəmiyyətdə artıq yükə çevrilə bilər.

## Erkən nikaha son!

Statistikaya görə, indiyədək dünya miqyasında 650 milyondan çox qadın uşaq yaşlarında evliliyə sövq edilib. Hər il ən azı 12 milyon qız 18 yaşına çatmadan evlənir və ya buna məcbur edilir. Bu isə hər dəqiqədə 28 qızın erkən nikaha daxil olması deməkdir. UNICEF-in məlumatına görə, ən zəif inkişaf etmiş ölkələrdə bu rəqəm iki dəfə artıqdır. Orada qızların 40% -i 18 yaşından, 12% -i isə hətta 15 yaşından əvvəl ərə verilir. Bu təcrübə xüsusilə münaqişələrdən əziyyət çəkən və humanitar böhran şəraitində olan ölkələrdə daha çox müşahidə edilməkdədir. Bu baxımdan mütəxəssislər ən çox Cənubi Asiya və Afrikanın Sahara bölgəsini qeyd edirlər.

Belə qənaətə gəlmək olur ki, hər dəqiqədə 28 qız erkən nikaha daxil olmaqla, hər dəqiqədə dünya üçün 28 problem yaranır, 28 bəlanın təməli qoyulur. Bu dəqiqələr saata, saatlar aylara, illərə çevriləndə isə dünya qloballaşan problemlər qarşısında aciz qalır. Odur ki, erkən nikah məsələsini bir dəqiqə da yaddan çıxarmamalı, onunla hər saniyə mübarizə aparmalıyıq. Qızlarımıza kölə kimi deyil, əzizimiz, onu bizə bəxş edən Ulu Yaradanın hədiyyəsi kimi baxaq. Bu zaman onu incitməyin nə qədər günah olduğunu da dərk etmiş olarıq.





***Mətanət Məmmədova***

# Əli Kərimli təhlükəli cinayətkara çevrilir



Bu gün xalq olaraq tarixin elə bir qürurverici, şərəfli dövrünü yaşayırıq ki, bunu heç bir sözlə, fikirlə ifadə etmək mümkün deyil. Bəlkə də bəzilərimiz böyük zəfərin möhtəşəmliyini tam şəkildə dərk edə bilmirik. Çünki bəzilərimiz hadisələrin içində, bəzilərimiz isə birbaşa iştirakçılarıyıq. Ümumilikdə, yanaşma xoşdur və sevinclidir. Təbii ki, tariximizin müəyyən dövründə bu günləri araşdırıb təhlillər aparıldıqdan sonra böyük zəfərimizin miqyasını bütün varlığımızla anlamaq mümkün olacaq. Bu gün isə növbəti xoş hisslər yaradan hadisələr ondan ibarətdir ki, işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq, təmir və bərpa işləri aparılır. Hər gün hansısa kənd və qəsəbəyə keçmiş qaçqın və köçkünlərin qayıdışı barədə məlumatlar eşidirik. Sevinc doğuran xəbərlər yayıldıqca, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq azərbaycanlıların üzü gülür, sevinir, fərəh hissi keçirir. Mayın 24-də daha bir şad xəbər eşitdik. Azərbaycana qaytarılan Qazax rayonunun 4 kəndində Azərbaycanın sərhədçiləri yerləşib. Kələki və Qazağın 3 kəndi isə payıza qədər Azərbaycana qaytarılacağı qeyd edilir. Bütün bu xoş xəbərlər azərbaycanlı olmağımızla böyük fəxarət hissi yaradır. Həm də Ulu Öndərimiz Heydər Əliyevin zamanında dediyi müdrik kəlamın həqiqətən də möhtəşəm kəlam olduğu yada düşür: "Mən fəxr edirəm ki, Azərbaycanlıyam". Bəli, böyük qürurverici tarix yaşayırıq. Təəssüflər olsun bu xoş günlərimizdə bəzi sapı özümüzdən olan baltalar xarici məkrli qüvvələrin felinə uyub, ayırdıqları qrantlara aludə olub ölkəmizin uğurlarına kölgə salmağa çalışırlar.

### Əli Kərimli, Cəmil Həsənli və digərləri satılmağa öyrəncəlidir

Görünən ondan ibarətdir ki, Azərbaycanın dağıdıcı müxalifəti torpaqlarımızın azad edilməsindən və sosial- iqtisadi uğurların qazanılmasından heç də məmnun deyil. Çünki maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrin tələbi və göstərişləri yalnız Azərbaycanın uğurlarını gözdən salmaq və ölkədəki mövcud sabitliyə xələl gətirməkdən ibarətdir. Ə.Kərimli, C.Həsənli və digərləri satılmağa öyrəncəli olduqlarından Azərbaycan xalqının yanında deyil, erməni lobbisinin istək və tələblərinin icraçısı rolunda çıxış etməyə üstünlük verirlər. Azərbaycan xalqı bu üzüdönüklərin əməllərinə bələd olduqlarından onları qınayır və haqlarında hüquqi tədbirlərin görülməsini arzu edirlər. Əminliklə demək olar ki, gec-tez xalqın tələbi yerinə yetiriləcək və hüquq-mühafizə orqanları mili maraqlarımıza qarşı çıxan dağıdıcı müxalif funksionerlərinin cəzalandırılması üçün hərəkətə keçəcəklər. Hələlik isə, Əli Kərimli, Cəmil Həsənli və onların trolları sosial şəbəkələr üzərindən təxribat xarakterli statuslar yazır, videolar paylaşırlar. Hətta Ə.Kərimli o dərəcə təxribatlara meyillidir ki, ətrafında olanları Bakı şəhərində qarşıdurmalara çağırır.

### İcazəsiz aksiyalar zamanı dağıdıcı müxaliflər nəzarət altında olmalıdır

Dağıdıcı müxalifətin, xüsusilə də Əli Kərimlinin və ətrafındakı trolların ABŞ-ın və Avropanın qaranlıq dairələrinin sifarişlərinin qulları olduqlarını nəzərə alsaq, o zaman demək olar ki, istənilən vaxt bu məxluqlar terror aktları törədə bilərlər. Həm də nəzərə almaq lazımdır ki, Fransanın ifşa olunan casus şəbəkəsinin ipinin ucu Əli Kərimlinin ətrafına gedib çıxır. Bu baxımdan onları nəzarətsiz qoymaq təhlükəlidir. Hesab edirəm ki, kütləvi tədbirlərdə, xüsusilə planlaşdırdıqları icazəsiz aksiyalar zamanı onlar tam şəkildə nəzarət altına alınmalıdır. Çünki təhlükəli cinayətkar kimi davranış nümayiş etdirən Əli Kərimli istənilən vaxt terror aktları törədə bilər. Daha doğrusu, Ə.Kərimli ətrafına topladığı muzdlullar vasitəsi ilə obyektləri dağıda, mənzillərə hücumlar edə, insanlara xəsarətlər yetirə bilərlər. Ona görə də, heç kim qarantiya verə bilməz ki, Ə.Kərimli Milli Şura və AXCP adından planlaşdırdığı aksiyalar zamanı radikal addımlar atmayacaq. Açıqlamalarına və atdığı addımlarına əsaslanaraq demək olar ki, ondan hər cür cinayət əməlinin törədilməsi gözlənilməndir. Nəzərə almaq lazımdır ki, Ə.Kərimli birbaşa əhalinin sıx hərəkət etdiyi Nərimanov və 28 may metrostansiyalarının önündə aksiyaların keçirilməsini israr edir. Deməli, Ə.Kərimlinin məqsədinin birinci hissəsi ondan ibarətdir ki, əhaliyə xəsarətlər yetirilsin, ikinci niyyəti isə şəhərdə gərginlik yaratmaqla ictimai siyasi sabitliyi pozsun. Əminəm ki, mənim müəyyənləşdirdiklərimi Azərbaycan hüquq-mühafizə orqanları da bilirlər. Ona görə təxirəsalınmaz qabaqlayıcı tədbirlər gördükləri şübhəsizdir.

***İLHAM ƏLİYEV***



MÜNASİBƏT

# “Bu gün Gürcüstanda azlıq çoxluğa tabe olmaq istəmir”

***“Cənubi Qafqazda, Gürcüstanda uzun müddətdir ki, xarici agentlərlə bağlı qanun layihəsinə etiraz olaraq aksiyalar getməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.***



O bildirib ki, artıq dövlət, parlament qanun layihəsini qəbul edib və Prezidentə təqdim edib: ”Prezident isə buna veto qoyub geri qaytarır. Ümumilikdə parlament gec-tez bu qanunu qəbul edəcək. Çünki Gürcüstan hakimiyyəti dövlət və xalqın maraqlarını nəzərə alaraq suveren, müstəqil bir siyasət həyata keçirmək istəyir. Xarici dövlətlərin Gürcüstanın daxili işlərinə qarışmasına rəvac verəcək addımların qarşısının alınması üçün qanun qəbul edir. Başda Birləşmiş Ştatlar olmaqla Qərb Cənubi Qafqazda yeni qaynar ocaqlar yaratmaq istəyir. Gürcüstanı öz təsirinə salıb yenidən Cənubi Qafqazda xaos yaratmaq istəyir. Gürcüstan hakimiyyəti bu cür təxribat xarakterli siyasi gedişlərin qarşısını almaq üçün qanun qəbul etmək məcburiyyətində qalıb. Ümumilikdə Gürcüstanın baş naziri bu yaxınlarda açıqlama verdi ki, Gürcüstanı yeni münaqişəyə sürükləmək, Ukraynanın vəziyyətinə gətirmək istəyirlər. Bu isə Gürcüstan dövləti və xalqının maraqlarına uyğun deyil. Gürcüstanın bu günkü hakimiyyətinin apardığı müstəqil siyasət sorosçuları qane etmir. Bu baxımdan sorosçular yenidən Gürcüstanda iğtişaş törədərək dövlət çevrilişi etmək istəyirlər. Bu günlərdə Birləşmiş Ştatların dövlət katibinin açıqlamasında açıq şəkildə Gürcüstan hakimiyyətinə, xalqına təhdiddir və şantaj xarakteri daşıyır. Çünki hər bir dövlət, xalq, parlament müstəqil fəaliyyət göstərərək özünəməxsus, siyasi maraqlarına uyğun qanunlar qəbul edir. Açıq şəkildə bu qanunun qəbul edilməsinə qarşı başda Birləşmiş Ştatlar olmaqla Qərb Gürcüstana təzyiq edir. Bu, bir daha onu göstərir ki, Birləşmiş Ştatlar beynəlxalq hüquq prinsipi ilə siyasi davranışları beynəlxalq hüquq prinsiplərinə söykəmir. Güc, təhdid, şantaj vasitəsilə öz maraqlarını həyata keçirmək istəyir. Gürcüstan parlamenti demokratik yolla seçilmiş parlamentdir. Xalqın iradəsi ilə formalaşıb. Parlamentdə qəbul ediləcək qanun xalqın maraqlarına söykənmədir".



”Demokratiyanın təməl prinsipləri azlığın çoxluğa tabe olmasıdır. Bu gün Gürcüstanda azlıq çoxluğa tabe olmaq istəmir. Bir qrup sorosçular bu qanuna qarşı açıq etiraz edir və xaos yaratmaq istəyir. Bu etirazlar da Birləşmiş Ştatlar tərəfindən qızışdırılır. Toplantılara xarici səfirliklərin nümayəndələri də birbaşa qarışır. Birbaşa Gürcüstan hakimiyyətinin daxili işinə qarışmaq beynəlxalq normaların pozulması deməkdir. Hesab edirəm ki, Gürcüstan dövləti buna qarşı adekvat cavab verəcək. Dövlət katibinin şantaj dilində danışmasına gəldikdə isə bu, beynəlxalq normalara ziddir. Gürcüstanda yeni dövlət çevrilişi edərək Cənubi Qafqazda yeni xaos ocağının yaranmasına rəvac verəcək.

Hesab edirəm ki, Gürcüstan bu məsələdə prinsipial mövqe tutacaq. Cənubi Qafqaz qlobal güclərin savaşının bir episentridir. Birləşmiş Ştatlar və Qərb koalisiyası Cənubi Qafqaza girərək Rusiyanın cənub cinahını bağlamaq istəyir. Bu baxımdan Ermənistanda möhkəmlənib Gürcüstanda da hakimiyyəti devirib növbəti hədəf Azərbaycan olacaq. Çünki Birləşmiş Ştatlar Cənubi Qafqazı öz təsirinə saldığı halda Rusiyanın cənub cinahı bağlana bilər. Bu cür siyasət Cənubi Qafqazda xaos yaradacaq. Birləşmiş Ştatların bu siyasəti Ermənistan və Azərbaycan arasında sülhün əldə edilməsinə də mane olan məsələdir. Cənubi Qafqazda stabilliyin yaranması üçün mütləq Cənubi Qafqaz Respublikaları region dövlətlərlə əməkdaşlığını gücləndirməlidir. Xaricdən gələn təsirlərə cavab verməlidir. Hesab edirəm ki, stabilliyin pozulması təkcə Cənubi Qafqaz Respublikaları üçün deyil, region dövlətlər üçün də təhlükə mənbəyidir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# İsraili, yoxsa Fələstini tanımaq?



*Avropa Fələstin dövlətini tanımaqda israrlıdır, bəs Səudiyyə İsraili tanıyacaqmı?*

***Dünya başını itirib, desək indiki reallığı təsdiq etmiş olarıq. Bəlkə də bu qiymətləndirmənin yerinə düşmədiyini deyənlər də olacaq. Amma başqa ifadə tapmaq sadəcə, mümkün deyil. Əgər dünya birliyi dünyanın dərdini çəksəydi, III yox, bəlkə də sonuncu dünya müharibəsi astanasında ağlını başına toplar, planetimizi onun öz sakinlərindən qorumaq üsulunu, çıxış yolunu tapardı. Amma, görünən budur ki, dünya güclərinin başçılığı ilə bir neçə qütbə bölünmüşük və mövqelərimizdə elə bərk dayanmışıq ki... ümid tək Allaha qalıb.***

Yaxın Şərq 50 ildən artıqdır ki, dünyanın ən qaynar nöqtəsi "titulunu" əldən vermir. Bu bölgədə kələfin ucu o qədər dolaşıb ki, fələk də gəlsə aça bilməz. İsrail 1948-ci ildə özünü dövlət elan edib. Fələstin isə dövlət qurmaqda hələ də çətinlik çəkir. Əvəzində İsraillə Fələstin muxtariyyəti, eyni zamanda İsraillə qonşu ərəb dövlətləri arasında bir neçə dəfə müharibə olub. Yenə məsələ öz həllini tapmayıb.

**Bu gün isə...**

Norveçin baş naziri Jonas Gahr Stşre ölkənin Fələstin dövlətini rəsmən tanıması qərarını açıqlayıb. Politico mənbələrinin məlu-







matına görə, İrlandiya və İspaniya oxşar qərarı mayın 22-də açıqlayıb. Bundan əvvəl Avropa ölkələri arasında Fələstini yalnız İsveç tanıyırdı. Cənab Stör deyib ki, İsrail-Fələstin münaqişəsinin yeganə mümkün siyasi həlli iki ayrı dövlətin - İsrail və Fələstinin "yan-yana, sülh və təhlükəsizlik şəraitində" birgə yaşamasıdır. Norveçin qərarı çərşənbə axşamı, mayın 28-də qüvvəyə minəcək.

"Politico"nun məlumatına görə, son bir neçə həftə ərzində İrlandiya hakimiyyəti İspaniya, Sloveniya, Belçika, Norveç və Malta hökumətlərinin nümayəndələri ilə görüşlər zamanı Fələstin dövlətinin tanınmasının potensial vaxtını müzakirə ediblər. Bütün bu ölkələr Aİ-nin Fələstini tanıması ilə bağlı "İrlandiyanın fikrinə geniş şərikdir". Reuters mənbələri də İrlandiyanın planlarından danışıb. İsrail ilə Fələstinin Həmas hərəkatı arasında müharibə 7 oktyabr 2023-cü ildən davam edir. Fələstin rəsmiləri ölənlərin sayının 35,5 mindən çox olduğunu təxmin edir. BMT-nin baş katibi Antonio Quterreş yalnız Fələstin dövlətinin yaradılmasının müharibəni dayandıracağını bildirib.

Mayın 20-də Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) prokuroru Kərim Xan İsrailin baş naziri və müdafiə naziri Binyamin Netanyahu və Yoav Qalantı, habelə HƏMAS-ın üç liderini müharibəyə görə həbs etmək üçün məhkəmənin İlkin Palatasına müraciət edəcəyini açıqlayıb. ABŞ prezidenti Co Bayden bu qərarı qərəzli adlandırıb. ICC-nin mövqeyini Fransa və Belçika dəstəkləyib, Böyük Britaniya isə buna qarşı çıxıb.

İrlandiya hökuməti mayın 22-də Fələstini tanıdığını elan edib. Bu barədə "Reuters" mənbələrə istinadən məlumat yayıb. Bir gün əvvəl ölkə hökuməti İrlandiyanın baş naziri, xarici işlər və müdafiə naziri Saymon Harris və Mişol Martinin jurnalistlərə danışacaqlarını açıqlamışdı. Lakin onların çıxışının mövzusu dəqiqləşdirilməyib. Cənab Martin daha əvvəl Newstalk-a müsahibəsində İrlandiyanın Fələstin dövlətini tanımaq planları barədə məlumat verməmişdi. Sonra o, İrlandiyanın may ayının sonuna qədər Fələstini tanıyacağını açıqlayıb. Ölkənin müdafiə və xarici işlər naziri ölkəsinin fələstinlilərə öz müqəddəratını təyinetmə hüququna dəstək barədə məlumatlandırmaq istədiyinə aydınlıq gətirib. Bundan əvvəl cənab Martin İsrail ordusunun Qəzza zolağındakı hərəkətlərini də tənqid edib və onu hərbi cinayətlərdə ittiham edib.

İsrail Xarici İşlər Nazirliyi daha əvvəl İrlandiyanın Fələstini tanımaq niyyətini şərh edib. Mayın 21-də X sosial mediada nazirlik bildirib ki, bu addım "terrorizmin artmasına, regionda qeyri-sabitliyə gətirib çıxaracaq və sülh üçün istənilən perspektivləri təhlükə altına salacaq". BMT-nin baş katibi Antonio Quterreş bu yaxınlarda bildirib ki, yalnız Fələstin dövlətinin yaradılması İsraillə Fələstinin Həmas hərəkatı arasında müharibəni dayandıracaq.

Fələstin 2011-ci ilin sentyabrında BMT-yə tamhüquqlu üzv kimi daxil olmaq üçün müraciət edib, lakin Təhlükəsizlik Şurasından dəstək ala bilməyib. 4 aprel 2024-cü ildə Malta Fələstinin BMT-yə üzv olmaq üçün müraciətinə yenidən baxılması tələbini təmin edib. Mayın 10-da BMT Baş Assambleyası BMT Təhlükəsizlik Şurasına Fələstinin tamhüquqlu üzv kimi qəbul edilməsi məsələsinə baxmağı tövsiyə edən qətnamə layihəsini razılaşdırıb.

**ABŞ Səudiyyə Ərəbistanını İsraili tanımağa məcbur edir**

İsraillə Səudiyyə Ərəbistanı arasında "dövlətlərarası münasibətlərin normallaşdırılması" (oxu, diplomatik münasibətlərin qurulması haqqında) haqqında sazişin hazırlanması prosesi nəinki Qəzza zolağındakı müharibəyə görə dayandırılmayıb, əksinə, tezliklə imzalanacağı barədə fikirlər dolaşır. Müxtəlif ölkələrin bir neçə rəsmisi jurnalistləri buna əmin ediblər. Eyni zamanda saziş bağlamaq üçün İsrail də güzəştə getməli olacaq. Əsas məsələ müstəqil Fələstin dövlətinin yaradılması ilə bağlı razılaşmadır.

Krallığın tezliklə İbrahim Sazişləri adlanan sazişə qoşulacağı faktı (ABŞ 2020-ci ildə Donald Tramp administrasiyasının vasitəçiliyi ilə BƏƏ, Bəhreyn, Mərakeş və Sudanla münasibətlərin normallaşdırılmasına dair bir sıra sazişlərə belə istinad edir) –2021) çərşənbə axşamı, 21 may, İsrail prezidenti İsaak Hersoq elan edib. İsrail Demokratiya İnstitutunun konfransında o, ABŞ-ın milli təhlükəsizlik müşaviri Ceyk Sullivanla söhbətini danışıb.

ANALİTİK

*Ardı Səh. 11*

# İsraili, yoxsa Fələstini tanımaq?





Əvvəli-Səh-10

O, ötən həftə Səudiyyə Ərəbistanına səfər edib, mayın 18-də orada vəliəhd şahzadə Məhəmməd bin Salmanla danışıqlar aparıb, daha sonra İsrailə səfər edib. "Mən ondan sonra rəsmi olaraq dərc edilənləri eşitdim: Səudiyyə Ərəbistanı ilə münasibətlərin normallaşdırılması variantı gündəmdədir" deyə Hersoq bildirib.

O, bu yaxınlarda keçirdiyi brifinqdə Ağ Evin Milli Təhlükəsizlik Şurasının koordinatoru Con Kirbinin yaydığı məlumata istinad edib. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanı ilə ABŞ arasında "demək olar ki, yekun ikitərəfli razılaşmalar" hazırlanıb və bu, "daha inteqrasiya olunmuş regiona aparan tarixi razılaşmanın" bir hissəsi olacaq. Sallivan, yeri gəlmişkən, tezliklə monarx ola biləcək bin Salman ilə bu razılaşmanı müzakirə edib: atası, 88 yaşlı kral Salman bin Əbdüləziz əl Səud pnevmoniya ilə xəstəxanaya yerləşdirilib.

Sullivan ehtiyatla təxmin edirdi ki, paktın bağlanması illərlə deyil, aylarla aparılacaq. İsraillə HƏMAS arasındakı müharibənin nə qədər tez və necə bitəcəyindən çox şey asılıdır. Döyüşlər davam edərkən Səudiyyə Ərəbistanı üçün yəhudi dövləti ilə münasibətlərin normallaşması çətin ki, mümkün olsun. Lakin onlar sona çatarsa və müstəqil, beynəlxalq səviyyədə tanınan Fələstin dövləti yaranarsa, bin Salman İbrahim Sazişlərinə qoşula bilər. Bir sıra Aİ ölkələri yaxın gələcəkdə Fələstinin müstəqilliyini tanımağa hazır olduqlarını bildiriblər. Bayden administrasiyası da eyni şeydən danışır - məsələn, Dövlət Departamentinin sözçüsü Metyu Millerin Dövlət Katibi Antoni Blinkenin Yaxın Şərq səfərinin nəticələrindən sonra verdiyi aprel bəyanatında bundan bəhs edib.

## İsrail BCM-yə belə əhəmiyyət vermir

Beynəlxalq Cinayət Məhkəməsi (ICC) prokurorunun İsrailin baş naziri Binyamin Netanyahu və müdafiə naziri Yoav Qalantın, eləcə də Fələstinin HƏMAS hərəkatının liderlərinin həbsinə dair qərarı böyük beynəlxalq qalmaqala səbəb olub. ABŞ və bir çox Avropa müttəfiqləri Qərbin terror qruplaşması hesab etdiyi İsrail və HƏMAS-ı eyniləşdirmək cəhdindən hiddətlənib. Vaşinqton BCM-yə qarşı sanksiyaların tətbiqini nəzərdən keçirəcəyini vəd edib. Bununla belə, Avropa diplomatiyasının rəhbəri Josep Borrell və bir sıra Aİ və Qlobal Cənub ölkələri ICC-ni dəstəkləyib. BCM-nin təşəbbüsü ilə bağlı münaqişə beynəlxalq ədalətdə böhranı ortaya çıxarı. Bununla əlaqədar, Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov ABŞ-ın BCM-nin Rusiya Federasiyası və İsrail liderlərinə qarşı hərəkətlərinə verdiyi qiymətləri "ikili standartlar və ikiüzlülük nümunəsi" adlandırıb.

Qalmaqalın detonatoru ICC-nin baş prokuroru Kərim Xanın bazar ertəsi açıqlanan bəyanatı olub. Qəzzadakı münaqişəni şərh edərkən, o, münaqişənin hər iki tərəfinin əsas personajlarının həbsinə order istəyəcəyini bildirib. Kərim Xanın qara siyahılarından biri İsrailin baş naziri Netanyahu, Yəhudi Dövlət Müdafiə Nazirliyinin rəhbəri Yoav Qalant, Qəzza zolağındakı Həmas lideri Yəhya Sinvar, Əl-Qəssam Briqadalarının hərbi qanadının komandiri Məhəmməd Deif və HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyədir.

BCM baş prokurorunun bəyanatından belə çıxır ki, bütün bu şəxslər "2023-cü ilin oktyabrından bəri törədilmiş hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə görə məsuliyyət daşıyırlar". BCM baş prokurorunun qərarına ilk reaksiya verən İsrail rəhbərliyi olub. "Haaqa prokurorunun absurd və yalançı əmri təkcə İsrailin baş naziri və müdafiə nazirinə qarşı deyil, bütün İsrail dövlətinə qarşı yönəlib. Oktyabrın 7-də bizə dəhşətli qəddarlıqla hücum edən HƏMAS-ın alçaq qatillərinə qarşı ən böyük qəhrəmanlıqla döyüşən İsrail Müdafiə Qüvvələrinin əsgərlərinə qarşı yönəlib", - deyə potensial "ICC müştərisi" olan Baş nazir Netanyahu bildirib. İsrail prezidenti İsaak Hersoq isə qeyd edib ki, BCM ədalət mühakiməsinin əsas prinsiplərini pozur və belə bir addım "dünyadakı terrorçuları cəsarətləndirəcək".

İsrailin BCM ilə mübahisəsində əsas arqumenti ölkənin güclü və müstəqil məhkəmə sisteminə malik olmasıdır ki, bu da rəhbərliyin hərəkətlərinin müharibə qanunlarına və qaydalarına uyğun olub-olmadığını müəyyən etməyə qadirdir. İsraillilər xatırlayırlar ki, dövlət rəhbərləri tez-tez məhkəmə qarşısına çıxarılır və törətdikləri cinayətlərə görə həbs cəzası çəkirdilər. Bu arada ICC baş prokurorunun qərarına beynəlxalq reaksiya beynəlxalq ictimaiyyətdə kəskin parçalanmanın olduğunu üzə çıxarıb. ABŞ və onun bir çox avropalı müttəfiqlərinin daxil olduğu yəhudi dövlətinə güclü dəstək qrupu BCM-ni terrorçularla birgə oynamaqda və sülh prosesini pozmaqda günahlandıraraq tənqid atəşinə tutub. Eyni zamanda, məlum oldu ki, təkcə Qlobal Cənubda deyil, Qərbdə, o cümlədən Aİ-də də BCC-ni dəstəkləməyə hazır olanlar var.

Londonda açıq şəkildə bildirdikləri kimi, onlar prokuror Xanın Benyamin Netanyahu və Yoav Qalantı həbs etmək təşəbbüsünü regionda sülh prosesi üçün əks-məhsuldar hesab edirlər. "Bu addım döyüşləri dayandırmağa, girovları azad etməyə və ya humanitar yardımın çatdırılmasına kömək etməyəcək", - Britaniya hökumətindəki mənbə bildirib. O xatırladıb ki, İsrail bu qurumu yaradan müqavilə olan BCM-nin Roma Nizamnaməsinə qoşulmayıb və buna görə də ICC yurisdiksiyasına tabe deyil. Daha sonra Britaniya xarici işlər nazirinin müavini Endryu Mitçel bildirib ki, BCM qərarları Britaniya hakimiyyətinin şirkətlərə İsrailə silah satmaq üçün verdiyi icazələrə təsir etməyəcək.

Avstriya kansleri Karl Nehammer də BCM-ni sərt tənqid edib. "Biz BCM-nin müstəqilliyinə tam hörmət edirik. Lakin məqsədi İsmayıl Haniya, Benyamin Netanyahu və Yoav Qalantın həbsinə order verilməsi üçün Beynəlxalq Cinayət Məhkəməsinin İbtidai Palatasına müraciət etmək qərarını qeyd edirəm", - Josep Borrell yazıb

Parisin bəyanatları da bir çox Avropa ölkələrinin mövqeyi ilə aydın dissonansa çevrilib. "Fransa BCM-ni, onun müstəqilliyini və istənilən vəziyyətdə cəzasızlıqla mübarizəni dəstəkləyir", - Fransanın diplomatik departamenti qeyd edib. Onun izahatına görə, BCM-nin İbtidai Palatası prokuror Xanın ittihamlarını dəstəkləmək üçün təqdim etdiyi sübutları araşdırdıqdan və "bir-birini tamamlamaq prinsipini və İsrail məhkəmələrinin mümkün hərəkətlərini" nəzərə alaraq, order verib-verməmək barədə qərar qəbul etməli olacaq. Fransa Xarici İşlər Nazirliyi onu da əlavə edib ki, Paris bir neçə aydır ki, "beynəlxalq humanitar hüquqa ciddi riayət olunmasının vacibliyini, Qəzza zolağında mülki vətəndaşların itkilərinin qəbuledilməzliyini və humanitar yardımın kifayət qədər əlçatan olmadığını" xatırladıb.



İsrail dövlətini məhv etmək olan HƏMAS terror təşkilatının liderinin məhz bu dövlətin demokratik yolla seçilmiş nümayəndələri ilə eyni vaxtda hallanması anlaşılmazdır", o sosial şəbəkədə yazıb.

Praqa və Budapeşt İsrailə dəstək verən Avropa səslərinin xoruna qoşulub. Çexiyanın Baş naziri Petr Fiala Kərim Xanın petisiyasını "qeyri-adi və qəbuledilməz", Macarıstanın baş naziri Viktor Orban isə "absurd və biabırçı" adlandırıb. Almaniya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin bəyanatında deyilir ki, "Almaniya BCM-nin müstəqilliyinə və onun prosedurlarına hörmətlə yanaşır", lakin "məhkəmə bir sıra çətin suallara cavab verməli olacaq". "Həmas liderləri və İsrail rəsmilərinin həbsi üçün orderlərin eyni vaxtda verilməsinə görə münaqişənin hər iki tərəfi arasında saxta şəxsiyyət hissi var. İsrail hökumətinin öz xalqını qorumaq hüququ və məsuliyyəti var", - deyə diplomatik departament qeyd edib.

Bununla belə, Avropa diplomatiyasının rəhbəri Cozep Borrell Kərim Xanı dəstəkləyib. Onun sözlərinə görə, BCM-nin müstəqil beynəlxalq qurum kimi mandatı beynəlxalq hüquq normaları əsasında ən ağır cinayətlərin müəlliflərini cəzalandırmaqdan ibarətdir və bu qayda ayrı-ayrı ölkələrə deyil, hamıya şamil edilməlidir. "Mən Beynəlxalq Cinayət Məhkəməsinin prokurorunun Yəhya Sinvar, Məhəmməd Deif,

BCM-nin baş prokurorunun təşəbbüsü ətrafında yaranan kəskin münaqişə fonunda Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov vəziyyəti şərh edib. "Bu, ikili standartların daha bir nümunəsidir və Amerika ikiüzlülüyünün paradıdır. ABŞ hakimiyyəti BCM-nin legitimliyini inkar edir və söhbət Vaşinqtonun özünün və müttəfiqlərinin maraqlarından getdikdə bu strukturu sanksiyalarla qorxudur. Ancaq vicdan əzabı çəkmədən onlar düşmən hesab etdikləri şəxslərə qarşı bu psevdo-qanuni alətdən istifadə edirlər", - deyə Rusiya diplomatik missiyasının rəhbəri Vaşinqtonun BCM-nin Rusiya prezidenti Vladimir Putin üçün verdiyi həbs orderini dəstəklədiyinə işarə edib.

Birinin İsraili dəstəklədiyi, digərinin isə ICC-nin tərəfini tutan BCM təşəbbüsünü qiymətləndirməkdə dünyanın iki düşərgəyə bölündüyü bir şəraitdə ABŞ kimi güclü oyunçunun olması beynəlxalq dəstək qrupuna dəstək verir.

**V.VƏLİYEV**

# "Hansısa qadağalara mütləq şəkildə ehtiyac var"



***"Sosial davranışlar cəmiyyətdə harmoniya yaratmağa yönəlmiş olmalıdır". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib.***

O bildirib ki, söylədiyimizin əksi isə xaosa aparır: "Yəni cəmiyyət daxilində fərdlərin sosial davranışları ümumi harmoniyaya əsaslanmırsa, qarşılıqlı gözləmələr, anlaşmalar ona adekvat davranışlar yoxdursa, həmin cəmiyyətin daxilində daimi olaraq xaos hökm sürəcək. Fərdlərarası ziddiyyət, toqquşmalar, münasibətlərin kəskinləşməsi və daha böyük kontekstdə sosial münaqişələrin ortaya çıxması ilə nəticələnə bilər. Məşhur fransız sosioloqu Emil Dürkheym qeyd edirdi ki, insan elə bir varlıqdır ki, onun arzu və istəkləri sonsuzdur: "Onun arzu və istəklərini çərçivəyə salan, onun üçün müəyyən qadağalar yaradan sosial faktlara ehtiyac var". Yəni insanın arzu və istəkləri hədsiz olduğu üçün həmin azadlıq, arzuların gerçəkləşməsi cəmiyyət daxilində mütləq digər fərdlərin maraq və mənafelərinə toxunur. Maraqların uzlaşması pozulur və bu zaman fərdlər arasında sosial münaqişələr, münasibətlərdə ziddiyyətlər ortaya çıxır.

Deməli, fərdlərin davranışlarını tənzimləmək üçün hansısa qadağalara mütləq şəkildə ehtiyac var. Məşhur fransız sosioloqu Emil Dürkheym həmin qadağaları sosial fakt termini ilə ifadə edirdi. Sosial fakt qanun toplusu, etik davranışlar kodeksi, dinlərin gətirdiyi yasaqlardır. Yəni bütün bunlar kompleks şəkildə Emil Dürkheymin təbirincə desək, sosial fakt adlanır. İnsanların davranışını tənzimləyən həmin qanunlar toplusu, dini yasaqlar, etik davranış kodeksi və sairdir. Bunlar olmadıqca hər bir fərd cəmiyyət daxilində özü üçün məqbul hesab etdiyi davranış normasını seçə bilir və özünə haqq qazandırır. Başqalarının maraqlarını gözləmədən istədiyi davranışı sərgiləyir. Əlbəttə, başqalarının maraqlarını gözləmədən sərgilənən "davranış nümunələri" digər fərdlərin maraq və mənafelərinə toxunacaq, münasibətlərdə gərginlik yaradacaq. Cəmiyyətdə sosial münaqişələrlə və yaxud xaotik vəziyyətlə nəticələnəcək. Bir şəkildə fərdlərin davranışını tənzimləyəcək həmin sosial faktlara cəmiyyət həyatında daimi olaraq ehtiyac var. Zaman keçdikcə həmin qadağalar öz məzmunu da dəyişə bilir. Daha da sərtləşdirilə bilər, daha da yumşaldıla bilər. Zaman və məkan kontekstində situasiyanın nədən ibarət olduğuna baxır.



Sosioloji aspektdən yanaşdıqda Azərbaycan cəmiyyətində həm strukturalist baxışın əlamətlərini, həm də individualist baxışın əlamətlərini görə bilirik. Strukturalist baxış dedikdə cəmiyyətdə fərdin düşüncə və iradəsindən asılı olmayaraq mövcud qayda-qanunlar toplusu, dini yasaqların bir şəkildə fərdi təqib etməsi və fərdin onun təsirinə məruz qalmasıdır. Öz davranışını ümumi sosial mühitə uyğun şəkildə tənzimləyir. Yəni hər istədiyini etməkdən çəkinmə məcburiyyətində qalır. Çünki onun davranışlarının qarşılığında hansısa inzibati xəta, yaxud cərimə, cəmiyyətin qınağı gözləyə bilər.

Fərdiyyətçi baxışda isə fərdlər bütün qeyd olunanlara o qədər də dərindən əhəmiyyət verməyərək özləri üçün məqbul hesab etdiyi davranış nümunələrini ortaya qoyurlar. Məsələn, insan metroda getdiyi zaman ayağını qaldırıb əks tərəfdəki oturacağa qoyur, bununla da oradakı ümumi davranış qaydalarını pozmuş olur. Amma həmin fərd hesab edir ki, bu mənim üçün rahatdır. Bunu etməkdə mənim heç bir sosial məsuliyyətim yoxdur. Bu mənim üçün məqbul davranış nümunəsidir. Biz öz cəmiyyətimizdə də o individualist fərdləri müşahidə edirik. Onlar cəmiyyətdə ümumi qəbul olunmuş sosial norma və qaydalara məhəl qoymadan özləri üçün məqbul hesab etdikləri davranış nümunələrini ortaya qoyur, özləri üçün bunu məqbul hesab edirlər. Hansı ki, bu cəmiyyətdə ümumi tənzimləməyə çox mənfi təsir edən amil kimi ortaya çıxır".

"Fərdlər nə qədər individualist, yəni fərdiyyətçi olsalar da, strukturalist amilləri nəzərdən qaçırmamalıdırlar. Çünki ən azından sosial qaydaları, normaları pozan fərd mütləq şəkildə bir cəzaya məruz qalacaqdır. Ən yumşaq halda cəmiyyətdə qınaq obyektinə çevriləcək. Müəyyən fərdlər qrupu tərəfindən sosial təpkilərlə üzüzə qalacaq. Bu da ona görə baş verir ki, həmin fərd, fərdlər cəmiyyətin ümumi ab-havasını nəzərə almadan sosial norma və qaydalara önəm vermədən özləri üçün "məqbul" hesab etdiyi davranış "nümunələri" ilə sanki yeni bir davranış tiplərini ortaya qoymağa çalışırlar.







MÜNASİBƏT

Sosial davranışların formalaşması isə bir toplumun sadiq qaldığı milli-mənəvi dəyərlər sistemi ilə də bağlıdır. Məsələn, biz - azərbaycanlılar böyüyə hörmət, kiçiyə qayğı kimi humanist dəyərlərlə tərbiyə olunub formalaşmışıq. Bunlar bizim cəmiyyətin əslində üstün cəhətləridir. Bu milli-mənəvi dəyərlər, adət-ənənələr nəsildən-nəslə ötürülərək gələcək nəsillərə çatdırılmalıdır. Ahıl birinin fiziki imkanları ayaq üstə qalmasına imkan vermir, gənclərin isə ictimai nəqliyyat vasitələrində sərbəst əyləşib telefonları ilə oynamasını seyr etmək məcburiyyətində qalacağıq. Bir zaman gələcək ki, biz bunu artıq norma kimi qəbul edəcəyik. Hansı ki, xəstə, yaşlı insan, əngəlli insan həmişə müşahidə etmişik ki, Azərbaycan cəmiyyətinin daxilində onlara qayğı, hörmət, humanist yanaşma olub. Amma son dövrlər gənclər arasında bu kateqoriyadan olan insanlara fərqli münasibətlərin də ortaya çıxdığını görmüş oluruq. 80 yaşında bir insan ayaq üstə qalıb, amma 25 yaşında gənc isə rahat şəkildə avtobusda əyləşib telefonu ilə oynayır, sanki ətrafı görmür kimi hərəkət edir. Bu isə milli-mənəvi, dini baxımdan cəmiyyət ola bilməz. Bunlar Azərbaycan cəmiyyəti üçün qəbul olunan məsələlər deyil, bir sosioloq kimi buna qarşıyam.

Ümumi davranışlar kontekstində biz geyimi də nəzərdən qaçırmamalıyıq. Çünki geyim də yeri gələndə bir davranış nümunəsidir. Fərd ictimai mühitə çıxdıqda, insanlar arasında geyimi ilə də yaxşı mənada diqqət çəkməli, nümunə olmalıdır. Yoxsa ifrat dərəcədə açıq-saçıq geyinməklə, əxlaq normalarını pozmaqla heç bir sosial norma, dəyər yaratmaq mümkün deyil. Əslində bu mənəvi deqradasiya aparır. Bir zaman üçün Azərbaycanda əxlaqsızlıq kimi qəbul edilən geyim tərzini müəyyən fərdlər öz timsallarında gerçəkləşdirərək sanki onu normaya çevirmək təşəbbüslərində olurlar. Sosioloji mənada bu, Azərbaycan cəmiyyəti üçün hələlik o qədər də keçərli deyil. Amma yox da deyil. Biz toplum olaraq buna qarşı olmalıyıq. Hər kəs öz geyim-keçimində azaddır, amma əxlaqi dəyərlər çərçivəsində" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# Ağ xətt üzərində qara düşüncələr...

**Mətanət Məmmədova**

***Ağ xətlər üzərində qara düşüncələrə dalmamaq olmur. Necə dalmayasan ki? Axı ağ xətt hər an sənin qara xəbərin ola bilər. Odur ki, şəhərimizdəki işıqforsuz piyada keçidlərindən istifadə edənlərdən biri kimi, o xətlərin üzərində dəli bir ağlamaq keçir könlümdən. Həyatımın bu ağ xətlər üzərində bir gün qara rəngə boyanacağına ağlamaq istəyirəm. Elə bu səhər də ağ xəttin düz ortasında yanımdan ildırım sürətilə ötən avtomobillərin küləyindən az qala yıxılacağım anda ağlamaqdan vaz keçib gülməyə başladım.***

Desəniz ki, nəyə gülürdün? Deyərəm ki, özümə gülürdüm. Nə üçün gülürəm, keçiddə xəttin üzərində dayanıb sürücüyə yol verdiyim üçün. Onun da məsuliyyətsizcəsinə məni gözlətməsinə gülürəm. Sürücü bir az kənardan görür ki, piyada keçidinin düz ortasındayıq, daha da sürətini artırır ki, qarşımızdan keçsin. Biz də qalırıq düz yolun ortasında ki, sürücü bəy, sürücü xanım keçsin, biz sonra yola davam edək.

Məktəbin qarşısı, ictimai yaşayış binasının önü və sair, hara olursa-olsun bəzi sürücülər üçün heç əhəmiyyəti yoxdur, bizi gözlədib özləri keçəcəklər. Əslində biz onlardan qabağa düşə bilərik. Lakin bu sonuncu keçidimiz olar. Bizi asfalta elə yapışdırarlar ki, tikəmizi yerdən qoparmaq olmaz.

Biz hüquqlarımızı bilirik. Bilirik ki, piyada keçidinə yaxın avtomobili idarə edən sürəti azaltmalı, dayanıb piyadanın keçməsini gözləməlidir. "Yol hərəkəti haqqında" Qanunun 54-cü maddəsinin I hissəsində də deyilir ki, əgər piyada keçidində nəqliyyat vasitələrinin hərəkəti nizamlayıcı tərəfindən və ya svetofor vasitəsilə nizamlanmırsa, sürücü keçidə yaxınlaşarkən sürəti lazımınca azaltmalıdır ki, yolu keçməyə başlamış piyadaları təhlükəyə məruz qoymasın. Əgər piyada keçidə daxil olmuşdursa və ya daxil olmaqdadırsa, sürücü nəqliyyat vasitəsini dayandırmalı və piyadaya yol verməlidir. Sürücünün piyadaya yol verməli olduğu xüsusi bir hal isə adı çəkilən qanunun 75-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulur: sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara yol verməlidir. Bu normadan göründüyü kimi, yolayrıcında dönən sürücü hətta döndüyü yolda piyada keçidi olmasa da, piyadaya yol verməlidir.

"İnzibati Xətalar Məcəlləsi"nin 330-cu maddəsinə əsasən isə həm nizamlanmayan piyada keçidlərində, həm də sağa və sola dönən zaman piyadaya yol verilməməsi 50 manat cərimə olaraq qiymətləndirilir.

Bu qaydalardan və cərimələrdən piyadaların xəbərsiz olanı olar, bəli. Lakin sürücülər xəbərsiz deyillər. Bəs belə isə nə üçün bilmək istəmirlər ki, kim kimi gözləməli, kim kimə yol verməlidir? Əksinə, piyada keçidinin ortasında maşını üzərimizə sürür, əslə dayanmaq fikirləri yoxdur. Və yaxud da ki, qarşıdan qəflətən adam çıxar, fikrini ağıllarına belə gətirmirlər.

Sürücülər bu barədə düşünmədikcə, biz hələ ağ xətt üzərində çox qara düşüncələrə dalacaq, ya ağlayacaq, ya da güləcəyik. Öz yolumuzda sürücülərə yol verməyə ağlamayaq, gülməyək, görəsən bəs, nə edək?..

***Özünü dünyanın demokratik, sivil, bəşəri dəyərlərə malik ölkəsi kimi təqdim etməyə çalışan Fransanın hər keçən gün yeni mənfi keyfiyyətləri üzə çıxır. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Fransa bu günümüzə qədər neokolonializm siyasətini, separatçılığı dəstəkləyən və eyni zamanda həm də terrorçuluğu təşviq edən, yaşadan, ona qol-qanad verən ölkə kimi özünü təsdiq edib.***







# Paris yaşıl dünyaya qarşı

## *Yaxud Fransa Azərbaycanın COP29-a ev sahibliyini niyə boykot edir?*



Ermənistanın işğalçılıq siyasətinin altından çıxan, terrorçuluğu maliyyətləşdirən rəsmi Paris Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək ideyası ilə 3 onillik cinayətin məsuliyyətini daşıyır. Amma bu ölkənin beynəlxalq arenada layiq olmadığı yerdə qərarlaşması onun əsas immuniteti olub. İstədiyi ölkəni cəzalandırıb, sanksiyalar tətbiq edib, dünya birliyinin ona verdiyi imkanlardan sui-istifadə edərək xalqların bir ömür bədbəxtçiliyinin baiskarına çevrilib.

Fransa qondarma "erməni soyqırımı" ideyasının müəllifi olaraq Türk dünyasını, xüsusən də Türkiyə və Azərbaycanı cəzalandırmaq üçün şərin yanında olub, kiçik Ermənistana havadarlıq edərək işlənməyən suçu leqallaşdırmağa cəhd edib. Paris bununla özünün Afrika, Yaxın Şərq, Dənizaşırı regionlarda törətdikləri vəhşilikləri, vandallıqları, Əlcəzair, Ruanda, Livanda, Konqoda, Nigerdə və digər ölkələrdə həyata keçirdiyi soyqırımılarını dünyanın diqqətindən yayındırmaq istəyir. Bu günümüzə qədər Fransanın törətdikləri cinayətlər barədə heç bir ölkə cəsarət edib danışa, Parisi beynəlxalq ictimaiyyət qarşısında qınaya, etiklərinə görə aidiyyəti təşkilatlar, qurumlar tərəfindən cəzalandırılmasına nail ola bilməyib. Fransanın 1,5 milyon əlcəzairlini qətlə yetirdiyi, soyqırımına məruz qoyduğu barədə ilk danışan isə Azərbaycan olub.

Bütün bunlara rəğmən Makronun idarə etdiyi Fransa törətdikləri bəşəri cinayətlərdən utanmaq, istismar etdiyi, müstəmləkə zülmünə məruz qoyduğu xalqlardan üzr istəmək əvəzinə, onu dünya ictimaiyyəti qarşısında ifşa edən Azərbaycanla düşmənçilik edir, bizə qarşı qərəzli, məqsədyönlü siyasət yürüdür. Bu gün Paris Şəhər Şurası Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyini boykot etmək barədə qərar qəbul edib. Bəli bu rəzalətə hələlik Rapis şəhər şurası imza atıb. Sabah Fransanın dövlət başçısının imzası olan sənədin ortaya çıxmayacağına da kimsə zəmanət verə bilməz. Çünki, bütün rəzalətlərin, anti-bəşəri əməllərin Fransaya aid olduğunu sübuta yetirmək üçün əziyyət çəkməyə də dəyməz. Fakt ortadadır.

Fransa Azərbaycanın COP29 sədrliyini hədəf alıb. Bundan əvvəl, Fransanın Avropa və Xarici İşlər Nazirliyi tərəfindən 16 aprel tarixli açıqlamada da bu istiqamətdə çağırışlar mövcud idi. Avropa və xarici işlər naziri Stefan Sejurnenin də verdiyi açıqlamada COP29 sədrliyini hədəf aldığı məlumdur. Sual olunur, niyə? Məgər qloballaşan dünyamızın sonu görünməyən uçuruma yuvarlanmasının qarşısını təkcə Azərbaycanmı almağa borcludur? COP29 dünyanı təhdid edən problemlərin həllinin müzakirə edildiyi bir platformadır. Həmin tədbir dünyanın hansı ölkəsindəsə keçirilməlidir, bu il 29-cu tədbiri keçirmək yükünü Azərbaycan öz üzərinə götürüb. Ölkəmiz, Frananın düşündüyü kimi, qazanc üçün bu tədbirin yükünü öz üzərinə götürməyib. Azərbaycan bəşəriyyətin sağlamlaşması, qlobal təhdidlərdən yaxa qurtarması üçün bu gün döyüş meydanındadır.

Hə, Fransanın yaşıl enerjiyə keçmək həvəsi, istəyi yoxdursa, üstünlüyü dünyanı hər an məhv etməyə hazır olan nüvə enerjisinə verməyə hazırdırsa, onda bu addımını COP-un digər ölkələrdə keçirilən toplantıları zamanı da ata bilərdi. Bəli, iri sənaye ölkələri COP tədbirlərindən bir o qədər də xoşhal deyillər. Çünki, COP onların cənaye maşınını hərəkətə gətirən bütün yanacaq növlərinə qarşıdır, yaşıl enerjidən istifadəni təşviq edir, əks təqdirdə dünyanın məhvə getdiyini anlatmağa çalışır. Fransa tərəfi anlamalıdır ki, Azərbaycanın sədrliyinə bütün ölkələr yekdil şəkildə səs verib. Bu qərar Azərbaycana göstərilən yüksək etimad, verilən böyük qiymətdir. Paris isə bu yekdil qərarı heçə sayır və ölkəmizin iqlim dəyişikliyi sahəsində apardığı işlərə dəstək əvəzinə bu fəaliyyəti sual altına qoyur. Fransa tərəfinin bu qərarı iqlim dəyişikliyi problemini əbəs yerə siyasiləşdirmək cəhdindən başqa bir şey deyil. Bu cəhdlər ümumilikdə iqlim dəyişikliyi ilə mübarizədə aparılan işlərə kölgə salmaq məqsədi daşıyır.

COP-a, həm də bəşəriyyətə qarşı

Azərbaycanın COP29 çərçivəsində gördüyü işlərə, planetin ekoloji təmizliyinin qorunması, "yaşıl enerji"yə keçidlə bağlı irəli sürdüyü beynəlxalq təşəbbüslərə əhəmiyyət verməyən Fransanın belə addımlar atmasının səbəbi son zamanlar Fransanın xarici siyasət sahəsində uğursuzluqlarını, Afrika qitəsində, Dənizaşırı bölgələrində Fransaya qarşı baş verən iğtişaşları ört-basdır etmək niyyətidir. "Avropanın lider dövləti" tituluna sahiblənmək kimi absurd həvəsə düşən Fransa hələ də müstəmləkəçilik mərəzindən qurtula bilmir. Tarix boyu dünyanın zəif dövlətlərini, xalqlarını əzmək, zülüm etmək, soyqırımına məruz qoymaq Fransanın ən çox sevdiyi siyasət olub. Tarixi vərəqləyək, Parisin Afrikada, uzaq Sakit Okean adalarında, Amerika materikində, Yaxın Şərqdə, bir sıra Asiya ölkələrində törətdikləri dəhşət saçır.

Fransız müstəmləkə imperiyası XIX və XX əsrdə dünyanın ən böyük müstəmləkə imperiyalarından biri olub. Müstəmləkə imperiyasının sahəsi Fransa ilə birlikdə 1900 illə 1930-cu illər arasında 24.000.000 km²-ə çatıb. Bu böyüklük dünyadakı torpaqların sahəsinin 17.8%-inə bərabərdir. Amerikadakı Fransız müstəmləkələrinin ən vacibi şübhəsiz olaraq Kanadadır. Fransanın bundan başqa Karib dənizi sahillərində də müstəmləkələri vardı. Haiti və Fransa Qvianası da Fransız müstəmləkəsidir. Bu gün Guadeloupe və Martinique hələ də Fransaya aiddir. Fransızların Şərqi Afrikadakı yeganə müstəmləkəsi isə Cibutidir. Bu dövlətin rəsmi dillərindən biri fransız, digəri isə ərəbcədir. Məğrib bölgəsindəki Əlcəzair, Mərakeş və Tunisdə hələ də fransız dili öz önəmini saxlayır. Hind okeanında Madaqaskar adası da Fransanın müstəmləkəsi olub. Bundan başqa Komor (Qəmər) adaları qrupu da müstəmləkə olub. Bu gün Komor adalarından biri hələ də Fransaya aiddir. Orta Şərqdə Osmanlı imperiyasından ayrılmış Suriya və Livan Fransanın müstəmləkəsi altına keçən dövlətlərdəndir.

### Paris nəyi hədəfləyib?

Sovet hakimiyyətinin süqutundan sonra onun yerində yaranan 15 müstəqil dövlətə nəzarət uğrunda ölüm-dirim savaşına qalxan iri dövlətlər arasında Fransa ilk yerlərdə idi. Ermənistanın Azərbaycana ərazi iddiasının arxasında da rəsmi Parisin dayandığına dair sübutlar kifayət qədərdir. İşğalçı ilə işğala məruz qalanı eyniləşdirən də, BMT Təhlükəsizlik Şurasında 4 dişsiz qətnamənin qəbulunda, ATƏT-in Minsk qrupunun və həmsədrlik institutunun yaradılmasında təşəbbüskar da Fransa idi. Məqsəd Ermənistanın təcavüzünü, Qarabağın işğalını legitimləşdirmək və bunun üzərindən Cənubi Qafqaza yerləşmək, regional layihələrə nəzarət idi. Fransa öz məqsədinə çatmaq üçün bütün beynəlxalq qanunları çeynəməkdən də çəkinmədi, Ermənistanın təcavüz siyasətinin arxasında durdu, regionun inkişafını düz 30 il ləngitdi. Ermənistanın bütün layihələrdən kənarda qalmasına səbəbkar da, qonşu dövlətlərə rəsmi İrəvanın ərazi iddiası ilə çıxış etməsinə həvəsləndirən də Fransa olub.

### Neo-kolonialist Fransa

Bütün dünyada müstəmləkəçilik siyasətinə, kiçik xalqların güclü dövlətlər tərəfindən istismarına son qoyulduğu müddətdən xeyli vaxt ötür. Amma Fransa kimi neokolonialistlər hələ də müstəmləkəçilik xəstəliyindən xilas ola bilməyiblər. Çünki, bu, Parisi ayaqda saxlayan siyasətdir. Fransanın Afrika qitəsində müstəmləkə altında saxladığı ölkələrdən və xalqlardan yalnız gəlir mənbəyi kimi istifadə edir. Son dövrlər Afrika ölkələri Fransanın buradakı mövcudluğuna son qoymaq üçün silahlı mübarizəyə başlayıblar, Parisin qurduğu oyuncaq rejimlər devrilib, ardınca fransız qoşunları qovulub. Fransanın əsas gəlir mənbələri, xüsusilə də uran yataqları əlindən çıxıb.

Bu gün oxşar hadisələr Okeaniyanın ada dövlətlərində baş verir. Yeni Kaledoniyada yerli xalq Parisin müstəmləkə siyasətindən qurtulmaq üçün mübarizə aparır. Parlamentə yeni seçkilərin keçirilməsi də Fransadan xilas olmağa hesablanıb. Paris isə Yeni Kaledoniyada fransızların sayını süni şəkildə artırmaqla buna qarşılıq vermək, adada yeni idarəçilik rejimi yaratmaq istəyir. Rəsmi Paris adaya qoşun yeridib, ölənlər və yaralananlar, həbs olunanlar barədə xəbərlər gəlir. Fransa ordusu adada bütün sosial şəbəkələri söndürüb, o cümlədən başqa xəbərləşmə imkanlarını da məhdudlaşdırıb. Məqsəd bəllidir, dünya birliyinin Parisin törətdiyi cinayətlərdən xəbərdar olmaması. Amma Azərbaycan kimi ölkələr Parisin yürütdüyü siyasətə qarşı çıxması Fransada şok effekti yaradıb. Fransanın daxili işlər naziri Jerar Darmanin tərəfindən Fransa Milli Assambleyasının hüquq komitəsində Azərbaycan-Yeni Kaledoniya əlaqələrindən danışarkən ölkəmizə qarşı əsassız və ittiham xarakterli iddialar səsləndirib. Azərbaycanın XİN isə məhz Fransanın uzun illər Azərbaycanda aqressiv erməni separatizmini dəstəkləyən addımlar atdığını, qondarma separatçı rejimin nümayəndələrini Fransada mütəmadi əsasda yüksək səviyyədə qəbul etdiyini dəfələrlə xatırladıb.

Bəli, Fransa müstəmləkəçilik siyasətini yeni formada, həm də daha dəhşətli üsullarla davam etdirir. Öz gücündən, nüfuzundan, əlinə düşən fürsətdən yararlanan rəsmi Paris kiçik xalqları əzməklə, onların hüquqlarını tapdalamaqla dünyada yeni düzən qurmağa çalışır. Fransa başqa ölkələrdə baş qaldıran separatçı, terrorla müşaiyyət olunan fəaliyyətləri dəstəkləyir, onları "haqq uğrunda mübariz" adlandırır, öz ərazisində baş verən oxşar hadisələrə isə başqa mövqedən yanaşır. Beynəlxalq birliyin çağırışlarına əhəmiyyət vermir. Azərbaycan isə Fransız neokolonializminin ifşa olunmasını və müstəmləkələrin Fransanın zülmündən azad olunması prosesini bundan sonra da dəstəkləyəcək.

***V.VƏLİYEV***





# Uşaqlarda depressiya əlamətləri hansılardır?

***“İnsanlar həyat boyu kədərlənə ya da sevinə bilər. Duyğularımız həyatın təbii bir parçasıdır. Ancaq, hüzn, kədər, pessimizm və s. davamlılıq göstərərsə, gündəlik həyata pis təsir etməyə başlayarsa bu bir “Depressiya xəstəliyi” ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Ruslan Kamilov deyib. Onun sözlərinə görə, depresiya psixi çöküntüdür: “İnsan hər yaşda psixi çöküntüyə məruz qala bilər. Bu səbəbdən depresiya ya da psixi çöküntü körpələrdə də, məktəb çağında da, gənclərdə də, yaşlılarda da rast gəlinə bilər. Məqalədə çağımıza damğasını vuran depresiyalar haqqında, depresiyaların gərək yüksək müşahidə sıxlığı, gərəksə sosyal-iqtisadi nəticələri səbəbiylə son dərəcə əhəmiyyətindən bəhs olunur.***

Açar sözlər: psixi çöküntü, günahkarlıq, yorğunluq, boşluq, psixoloji narahatlıq. Depresiya, psixi çöküntü deməkdir. İnsan hər yaşda psixi çöküntüyə məruz qala bilər. Bu səbəbdən depresiya ya da psixi çöküntü körpələrdə də, məktəb çağında da, gənclərdə də, yaşlılarda da rast gəlinə bilər. Araşdıramalara görə depresiya ümumiyyətlə, 25 - 45 yaşlar arasında yəni əsasən məhsuldarlıq dövründə daha sıx olur. Yeni bir araşdırma isə insanların depresiyaya daha yönümlü olduqları yaşı 44 olaraq göstərmişdir. Bu bölmədə biz müxtəlif yaşlarda depresiya və onların aradan qaldırılması yollarından danışacağıq.

Uşaqlarda depressiya: Depresiya Dünya Sağlamlıq Təşkilatı tərəfindən ən əhəmiyyətli on sağlamlıq problemindən biri olaraq qəbul edilmişdir. Yaşlılar üçün bu qədər əhəmiyyətli olan bu psixi sağlamlıq problemi uşaqlarda da təxmin ediləndən çox daha geniş şəkildə ortaya çıxa bilir.

Aparılan araşdırmalar, ilk dəfə majör depresiyanın çox kiçik uşaqlarda belə xronikiləşə biləcəyini göstərmişdir. Uşaqlarda depresiya tək bir səbəbə bağlana bilməz. Uşağın təməl xüsusiyyətlərinə, psixoloji xüsusiyyətlərinə və ətrafın təsirlərinə görə ortaya çıxa bilər. Hansı faktorun daha ön planda olduğu uşaqdan-uşağa dəyişir.

Ana-ata həyatdakı rollarını nizamlaya bilmədikdə uşaq, özünü tək və çarəsiz hiss edər. Çoxu vaxtı valideynlər, uşağın yaşadığı böhrandan xəbərsizdir. Uşaqların fərqli bir iç dünyaları olduğunu, yaddaşlarının çox güclü olmadığını və bəzi şeylərə əhəmiyyət vermədklərini düşünərlər. Halbuki uşaqların hissləri, nə qədər maraqsız görünsədə, son dərəcə açıqdır. Ətraflarında olan bitənlərin fərqindədirlər. Ancaq mühakimə gücləri inkişaf etməmiş olduğundan, problemlərin nədən qaynaqlandığını anlamazlar, çox vaxtda problemlərin özlərindən qaynaqlandığını zənn edərlər. Valideynlər uşaqlarının ruh sağlamlığına təsir edəcək davranışlarından qaçmaları həm uşaqlar, həm də özləri üçün çox əhəmiyyətlidir. Körpəlik və uşaqlıq dövründə meydana gələcək psixoloji narahatlıqlar, uşaqların yetkinlik dövrünə də əks olunar. Uşaqda meydana gələcək psixi çöküntü, həyatı boyunca qarşısına çıxıb onu narahat edə bilər”.

Psixoloq sözlərinə belə davam edib: “Uşaqlarda ən əhəmiyyətli depresiya səbəbi, anadan ayrılıq vəziyyətidir. Uşaqlar, ana ayrılığına ilk etapda ani narahatlıq, hirs partlamaları ilə reaksiya göstərər. Ananı geri gətirmə səyi göstərərlər. Daha sonra ümidin itirilməsi, susqunluq, kədərlilik və ağlamalar müşahidə olunar. Bir müddət sonra da özünü buraxma və qədərə təslim olma halları ilə qarşılaşılar. Bu dövr uşaqlar, yetkin depresiyası xüsusiyyətləri göstərərlər.

Körpəlik dövründən etibarən güvən mühitində böyüdülməyən, ehtiyacları qarşılanmayan, stress altında, diqqət əksikliyi, öyrənmə və ya davranış pozulması olan uşaqlar daha asan depressiyaya düşür. Uşaqlarda depresyanın əsas əlamətləri aşağıdakılardır:

• Müəyyən bir səbəb olmadan yersiz şəkildə və ya ola biləcək şeylər haqqında narahatlıq hiss edərlər.

• Yuxusuzluq kimi şikayətlər, qorxulu yuxular və tək yata bilməmə halları olar . •Ümumiyyətlə gərgin, ağlağan, narahat olar, düşüncələrini toplamaqda çətinlik çəkərlər.

• Bir insana həddəndən artıq asılı olma, utancaqlıq kimi davranışlar göstərərlər. •Məktəbli uşaqda ətrafı və yaşıdları tərəfindən təsdiqlənməyəcəyi qorxusu ön plana çıxar. Uşaq öz fikirini söyləməkdən çəkinə bilər, bəzilərinin köməyi və dəstəyi olmadan bir işə girişmək istəməyə bilər, yoldaşlığa başlamaqda çətinlik çəkə bilərlər.

• Səhv bir şey söyləyə biləcəyi qorxularıyla dərsdə iştirakı azala bilər. Dərslərinidə uğurlu ola bilməyəcəyi narahatlığıyla məktəbə gəlmək istəməyə bilər.

• Özünü boşluqda hiss etmə.

• Tez ağlamaq.

• Tez-tez baş ağrısı, qarın ağrısı kimi fiziki şikayətlər.

• Sevdiyi şeyləri etməmək, zövq almamaq, oyun oynamamaq

• Dəyərsizlik duyğusu, kimsə tərəfindən sevilmədiyindən ya da az sevildiyindən şikayət etmək

•Günahkarlıq duyğuları, olanları öz günahı olaraq şərh etmək

• Ümidsizlik

• Bədbəxtlik

• Enerji əksikliyi

• Ünsiyyət əksikliyi

• Hirs və ya düşmənlik davranışlarında artma

• Az ya da çox yemək yemək

• Küsəyənlik

• Həddindən artıq hərəkətlilik ya da əksi

•Diqqət dağınıqlığı, məktəbdə müvəffəqiyyətdə uğursuzluq

• Ailə əlaqələrində pozulmaq, söz dinləməmək ya da çox səssiz qalmaq

• Ailə xaricində uyğunlaşma çətinliyi

• Ailə problemlərində əməkdaşlığından qaçmaq

• Ailədən uzaqlaşmaq

• Yoldaş problemlərində artma, özünü kənarlaşdırılmış və tək hiss etmək

• Evdən qaçmaqla əlaqədar sözlər və ya təşəbbüslər

• Ölümdən danışmaq, qorxmaq

• İntihar cəhdi

Depresiyadakı bir uşaq çox adi bir bəhanəylə problem çıxara bilər. İstədiyi bir şey üçün təkid etməsi, normal bir uşağın təkid etməsindən çox fərqlidir. Normal bir uşaq, istədiyi bir şeyin olması üçün bir müddət israr edər, edilə bilmədiyində qəbul edə bilər. Depresiyadakı uşaq isə məqsədsiz, hər hansı bir şey üçün israr edə bilər.

Uşaqlıq depresiyasını təyin edə bilmək və qiymətləndirmək olduqca çətindir. Çünki uşaqların bir çoxu duyğu və düşüncələrini dilə gətirməkdə çətinlik çəkərlər. Uşaqlar, razı olmadıqlarında, qorxduqlarında ya da özlərini pis hiss etdiklərində ağlayarlar. Böyüklər, bu vəziyyətdə, uşağı əyləndirərək, diqqətini başqa istiqamətə çəkərək, bu duyğuların keçəcəyini düşünərlər. Məktəb və yoldaş əlaqələrindəki dəyişikliklər qiymətləndirilməli, bu mövzuda müəllimlər, məktəbdəki rəhbərlik mütəxəssisləri və məktəb rəhbərliyinin dəstəyi alınmalıdır. Bu dövrdə xüsusilə valideynlərin rolu çox əhəmiyyətlidir. Bun görə də ailələr uşaqlarına nümunə olmalı, yeni düşüncə formaları yaradılmasında onlara köməkçi olmalıdırlar. Çunki uşaqlar depresiya müddətində ailələrini nümunə olaraq götürə bilərlər. Onların ən çox ehtiyac duyduqları şey sevgidir.

Uşaqlıq depresiyaları uşağın şəxsiyyət və ictimai inkişafını birbaşa təsir edir. Bu səbəbdən depresiyanın diaqnozu və müalicəsi əhəmiyyət daşıyır. Bu vəziyyətdə ana-atalar və müəllimlər uşaqların ruhi vəziyyətləriylə əlaqədar məlumat toplamalı və uşaqların davranışlarıyla əlaqədar yaxşı bir müşahidəçi olmalı, lazım olduqda uşaqların ruh sağlamlığıyla məşğul olan bir mütəxəssisə müraciət edilməsi lazımdır. Ətrafda belə bir mütəxəssis yoxdursa uşaq psixoloqlarından kömək istəmək olar, uşaq psixoloqu ilkin qiymətləndirməni etdikdən sonra valideynləri istiqamətləndirəcəkdir”.



PSİXOLOQ AÇIQLADI






**Ayşən Vəli**

# Nə piyada qayda bilir, nə sürücü

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



***Yol hərəkətinin təşkilində hamımızın rolu var, kimimiz sürücü, kimimiz piyada, kimimiz də sərnişinik. Hər bir vəziyyətdə necə davranmağımız, hərəkətin təşkilindəki rolumuzu bilməyimiz olduqca əhəmiyyətlidir. Mahiyyət etibarilə nəqliyyatda sürücü olmaq da çətindir, yolda piyada olmaq da. Piyadaların öz hüquqlarını və öhdəliklərini bilməməsi, sürücülərin yol hərəkətinin təşkilində yol verdiyi qayda pozuntuları, sərnişinlərin biganəlqyi qanunların çeynənməsi, tapdanması deməkdir.***

Etiraf edək ki, piyada mədəniyyətinə çox nadir halda şahid oluruq. Yeraltı və yerüstü keçidlərdən istifadə minimumdur, piyada zolağından keçən piyadalar azdır. Yolun digər tərəfinə keçmək üçün küçənin piyada zolağı olan hissəsindən, küçə boyu hərəkət edərkən səkilərdən istifadə edilməlidir. Lakin səkilərdə hərəkət nə qədər əlverişlidir, bunun özü mübahisəlidir. Çünki bir çox küçələrdə ya səki yoxdur, ya hərəkət üçün məhdudlaşdırılıb - obyektlər zəbt edir, satış üçün istifadə edilir.

Əgər səkilər əlverişlidirsə piyada səki ilə, piyada zolağı ilə, yol çiyinləri ilə, bütün bunlar olmadıqda isə velosipedçilərin hərəkətini çətinləşdirməmək şərti ilə velosiped yolu ilə gedə bilər. Yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsinin kənarı ilə piyada kimi hərəkət edirsinizsə o zamanı axının əksi istiqamətində gedin, bu sizi təhlükələrə qarşı qoruyur.

Bakının ən ciddi problemlərindən biri də bir çox ərazidə avtobus dayanacaqlarının əlverişsiz olmasıdır. Dayanacaqlar ya satış üçün istifadə edilir, yaxud da taksilər tərəfindən zəbt edilib. Avtobusu gözləmək üçün dayanacağa girə bilməyən piyada yolun hərəkət hissəsinə çıxmalı olur. Qanunlarımız deyir ki, ictimai nəqliyyatı və taksini, yalnız yolun hərəkət hissəsindəki nisbətən azca hündürə qaldırılmış minik meydançalarında, onlar olmadıqda isə, səkidə və ya yol çiyinlərində gözləmək lazımdır. Lakin qeyd etdiyimiz probleme görə bu həmişə mümkün olmur. Yol patrul əməkdaşları bir çox hallarda bu problemi tənzimləmək məcburiyyətində qalır, yolun hərəkət hissəsinə çıxıb avtobus gözləyən piyadaların təhlükəsizliyinə nəzarət edirlər.

Piyadaların səhlənkarlıq etdiyi məsələlərdən biri də hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və ya piyada işıqforunun, o olmadıqda isə, nəqliyyat işıqforunun işarəsinə qarşı etinasız olmasıdır. İşıqfor mədəniyyəti piyadanın şəxsiyyət vəsiqəsidir və yollardakı qəza vəziyyətləri məhz işıqfora əməl etməyən piyadaların səhvi ucbatından yaranır.





Müşahidələr göstərir ki, işıqfor mədəniyyəti olmayan böyüklərin yanındakı uşaqlarda da bu alışqanlıq olmur. Valideyni ilə qırmızı işıqda, qaçaraq yolu keçən uşaqlar bunu tək olduqda da təkrarlayır. Böyüklərin nümunəvi piyada olması, kiçiklər üçün də yol xəritəsi olur, işıqforun icazə siqnalını gözləmələri, piyada qaydalarına əməl etmələri onların dissiplinli, nümunəvi vətəndaş olmalarına da faydalıdır.

Bir də sürət həddi yüksək olan yollarda qarşı tərəfə keçən piyadalar var. Hər il onlarla insan bu səbəbdən dünyasını dəyişir, günahsız sürücü isə həbs edilir. Piyadalar sutkanın qaranlıq vaxtı yolun sürət həddi yüksək olan hissəsində, həm də işıqlanmayan hissəsində qarşıya keçməyə cəhd edirlər. Qara geyimdə, qaranlıqda və sürətli hərəkət olan yolda bu manevri edən piyadanın sonunun necə olacağı bəlli deyilmi? Araşdırmalar göstərir ki, bu kimi hallarda yaxınlıqda yerüstü və ya yeraltı piyada keçidi olan yerlər çoxluq təşkil edir. Hadisənin baş verdiyi ərzidən 50-60 metr uzaqlıqda keçid var və piyadalar o keçidlə yox, təhlükəli manevrlə sürətin yüksək olduğu yoldan keçirlər. Nəticədə ya ölürlər, ya da ömürlük şikəst qalırlar.

Yol hərəkəti haqqında qanuna görə piyada, nizamlanmayan piyada keçidlərində yolun hərəkət hissəsinə yaxınlaşmaqda olan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən və yolu keçməyin onlar üçün təhlükəsiz olacağını yəqin etdikdən sonra çıxa bilər. Nizamlanmayan, piyada keçidi olmayan yollarda, qəza ehtimalının yüksək olduğu vəziyyətlərdə qarşıya keçməyə cəhd edən piyada yol hərəkəti iştirakçıları üçün potensial təhlükədir. İkitərəfli hərəkət istiqaməti





olan çoxzolaqlı yollarda təhlükə daha böyükdür. Qaçaraq yolu birdəfəyə keçmək piyadaya baha başa gəlir. Halbuki, bu kimi vəziyyətlərdə keçidi başa çatdıra bilməmiş piyadalar nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üstündə dayanıb gözləməlidirlər.

YHQ deyir ki, uşaqları dəstə halında yalnız sutkanın işıqlı vaxtı və böyüklərin müşayiəti ilə ancaq səki ilə, piyada yolu ilə, bunlar olmadıqda isə yol çiyini ilə aparmağa icazə verilir. Lakin məktəbə yaxın ərazilərdə bu qaydalar kobud şəkildə pozulur. Valideynlər qətiyyən işıqforun icazə siqnalına əhəmiyyət vermir, uşaqlar yolun hərəkət hissəsi ilə aparılır, səkilərdən istifadə edilmir. İnsafən, demək lazımdır ki, bir çox məktəbə yaxın ərazilərdə səkilər də yararsız vəziyyətlərdədir – ya dağıdılıb, ya da bir nəfərin belə hərəkət edə bilməyəcəyi ensizlikdə inşa edilib.

Məktəblərin önündə piyada keçidlərində də vəziyyət acınacaqlıdır. Övladını məktəbə qoymağa və ya götürməyə gələn valideynlər nəqliyyat vasitələrini piyada keçidinin üstündə park edirlər. Bu da təbii olaraq məktəblilərin yolu keçməsinə maneə yaradır və uşaqlar yolun digər hissəsindən keçməli olurlar. Məktəblərə yaxın ərazilərdə sürət həddi tənzimlənmir, sürücülər 1.21 yol nişanının tələblərinə əməl etmirlər.

1.21 - "Uşaqlar" nişanı məktəb, uşaq bağçası, düşərgə və başqa bu kimi uşaq təşkilatlarının yanından keçən və hərəkət hissəsinə uşaqların çıxması ehtimalı olan yol sahəsinə yaxınlaşma barədə sürücüləri xəbərdar edir. Uşaqların hərəkət təhlükəsizliyi barədə təsəvvürlərinin zəif olduğu nəzərə alınaraq bu nişan təkrarlanır, birinci nişan təhlükəli sahənin başlanğıcına ən azı 100 metr qalmış, ikinci nişan isə ən azı 50 metr qalmış qoyulur. İkinci nişan təhlükəli yol sahəsinin, yəni yolun uşaq təşkilatının yanından keçən hissəsinin uzunluğunu göstərən 7.2.1 əlavə məlumat nişanı ilə birlikdə qoyulmalıdır. Lakin jurnalistlər tərəfindən şəhərdə aparılan sorğular zamanı məlum olur ki, sürücülərin əksəriyyəti hətta uşaqlar nişanını tanımır.

Yol hərəkətinin təşkilində hamımız məsuliyyət daşıyırıq – Səki ilə gedən piyada da, sükan arxasında oturan sürücü də, arxada oturmuş sərnişin də, yolu nizamlayan nizamlayıcı da. Yol hərəkətinin təşkili bizim birgə vəhdətimizdir, birimiz qaydalara əməl etməyəndə bu sistem pozulur, qəza zəncirinin ilk halqası peyda olur. Savadlı piyada, sürücü və sərnişin olmaq qəzaların sayının minimuma enməsi, ölməmək, öldürməmək deməkdir.

***Lalə Mehralı***

PROBLEM

SON SƏHİFƏ
SƏS
25 may
2024-cü il

# “Məktəblərdə heç də yalnız müəllimlər siqaret çəkmir”



***“Hal-hazırda 4 min 432 orta ümumthsil məktəbində 150 min müəllim var ki, onların 81 faizini qadınlar, yerdə qalan hissəsini isə kişi müəllimlər təşkil edir. Əlbəttə, ümumilikdə təhsil müəssisələrinin ərazisində siqaret çəkmənin məhdudlaşdırılması çox yaxşı bir addımdır. Ona görə ki, bu fiziki olaraq həmin təhsil müəssisəsində çalışanların sağlamlığı üçün də vacibdir. Çünki orta ümumtəhsil məktəblərində heç də yalnız müəllimlər siqaret çəkmir.***

Çox təəssüflər olsun ki, bu gün şagirdlər arasında da siqaret çəkmə halları kütləvidir. Hətta apardığımız kiçik monitorinqlər onu göstərir ki, şagirdlər arasında siqaret çəkmə halları hədsiz dərəcədə çoxalıb. Xüsusən 9-11-ci sinif şagirdlərində siqaret alüdəçiliyi var. Hesab edirəm ki, yeni qaydalar çox yaxşı oldu və bu hallar inzibati xəta hesab oluna biləcək”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Orta ümumtəhsil məktəblərində siqaret çəkmənin məhdudlaşdırılması şagirdlərin sağlamlığı üçün vacibdir. Bu məktəblərdə pis qoxunun aradan qalxmasına, şagirdlər arasında konfliklərin olmasına gətirib çıxarırdı. Hətta bir neçə gün bundan əvvəl şagirdin birinin digərinin alışqanını siqaret çəkmək üçün alaraq qaytarmayıb və bu onun həyatını itirməsi ilə nəticələnib.

Ümumilikdə ümumtəhsil məktəblərində tütün məmulatları, spirtli və enerji içkilərindən istifadə də məhdudlaşdırılmalıdır. Hətta bu məhsulların satışı da məktəbə



**TƏHSİL EKSPERTİ AÇIQLADI**

yaxın olan obyektlərdə olmamalıdır. Çox təəssüf ki, bu gün Bakıda və bölgələrdə məktəbin qarşısında müəyyən köşklərdə bu məhsullar satılır. Bunlar şagird müəllim münasibətləri üçün də vacib bir amildir. Çünki bəzən müşahidə edirik ki, şagirdlərin tütün məmulatlarından istifadə etməsi onların müəllimlə münasibətlərini pisləşdirən haldır. Ötən gün sosial şəbəkələrdə müəllimlə şagirdlər arasında bu barədə konfliklər baş vermişdi. Bununla bağlı qaydaların işləkliyini təmin etməliyik”.

***A. Vəli***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kökəlmənin qarşısını necə almaq olar?



***“Orqanizmi enerji ilə təmin edən qidalardakı karbohidratlar, yağlar və zülalların miqdarı və onların öz daxilində paylanması qidanın çəki artırma xüsusiyyətini müəyyən edir. Həmçinin qidanın tərkibindəki su və lif kimi kalorili olmayan komponentlərin miqdarı, həmin qidanın həcminə nisbətdə orqanizmə verdiyi enerjini artıra və ya azalda bildiyi üçün onun çəki artımına səbəb olma ehtimalını müəyyən edən digər amillərdir”. Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.***

Asim Vəliyev sözlərinə belə davam edib: “Əvvəla bilinməlidir ki, bir çox sağlam və ya zərərli qidalar heç bir ölçüyə diqqət etmədən çox miqdarda qəbul edildikdə kökəlməyə meyli artıracaq. Bəzi istisna hal kimi aşağı enerjili qidalar çəki artımına çox təsir etməsə də, hər hansı qidanın çox istehlakı düzgün deyil. Bu səbəbdən sağlam və balanslı qidalanma sağlam kökəlmək və çəkisini nəzarət altında saxlamaq istəyən fərdlər tərəfindən əsas hədəf olmalıdır. Nəzarətsiz çəki artımı başda piylənmə olmaqla bir çox xəstəliyə səbəb ola bilər.

Sağlam və balanslı qidalanarkən taxıl, ət, yumurta, süd və süd məhsulları, meyvə və tərəvəzlər, paxlalılar, yağlı bitkilər lazımi çeşiddə istehlak edilməlidir. Rafinə edilmiş şəkər, çox miqdarda yağ və xüsusilə qablaşdırılmış qəlyanaltılar mümkün qədər azaldılmalıdır, çünki onlar çəkiyə nəzarət etməyi çətinləşdirir və sağlamlığa mənfi təsir göstərir. Bununla yanaşı bəzi qidalar da miqdarında istehlak edildikdə çəkiyə nəzarət etməyə mənfi təsir göstərmir. İstehlak miqdarı artdıqda kökəlməyə səbəb ola bilər.

Gündəlik həyatımızda tez-tez, zövqlə qəbul etdiyimiz bəzi qidalar orqanizmə vitamin, mineral və zülal baxımından fayda verə bilmir, yalnız yüksək kalorili olur. Bu qidalar insan orqanizminə və sağlamlığına heç bir fayda verməsə də, çox yüksək enerji tərkibinə görə boş enerji qaynağı olur. Tez kökəlməyə səbəb olan qidalar və ya arıqlamağa səbəb olan qidalar çipsi, souslu qidalar, kola və qazlı içkilər, hazır kofe qarışıqları, hazır souslar, keks, biskuvit, hər cür paketli qidalar və bir çox qidalardır. Bu cür boş enerji qaynağı olan qidalardan hər kəs uzaq durmalıdır. Sağlam çəki almağımıza kömək edəcək bəzi qidalara fındıq, badam, qoz, quru meyvələr, az yağlı ətlər, balıq, yumurta, süd və süd məhsulları, xurma və bir çox qidaları missal göstərə bilərik”.

***Ayşən***

# Azərbaycan para-atleti dünya çempionatında finala yüksəlib




Azərbaycan para-atleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında finala yüksəlib. Milli Paralimpiya Komitəsindən SİA-ya verilən məlumata görə, 22 yaşlı idmançı T13 kateqoriyasında 400 metr məsafəyə qaçış üzrə finişə 56.57 saniyə çataraq həlledici mərhələdə iştirak hüququ qazanıb. O, bu gün qızıl medal uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, Lamiyə Vəliyeva bu yarışda daha əvvəl 100 metr məsafəyə qaçışda dünya çempionu olub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**